# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Heydər Əliyev Fondu: gələcək nəsillərə qayğı



3

SƏS
№ 063 (7231)
17 aprel 2025-ci il.
Qiymәti 60 qәpik

## Azərbaycan-Gürcüstan münasibətləri: regional sabitlik və inkişaf



2

Prezident İlham Əliyev: "Gürcüstan və Azərbaycanın birgə icra etdikləri layihələr daha böyük coğrafiya üçün böyük önəm daşıyır"

# Müvəqqəti məskunlaşma, yaxud "KİRAYƏ ÖLKƏ"



4

## Niderland idarəolunmaz quruluşa çevrilir



7

## Uşaq doğumu kəskin azalıb, uşaqpulu bərpa olunmalıdır



9

## "Medianın rolu heç vaxt bu qədər həlledici olmayıb"



5

## 29 yaşlı hücumçu Çempionlar Liqasında rekordçu oldu



16

## Gürcüstan hazır deyil



14

# Azərbaycan-Gürcüstan münasibətləri: regional sabitlik və inkişaf

## Prezident İlham Əliyev: "Gürcüstan və Azərbaycanın birgə icra etdikləri layihələr daha böyük coğrafiya üçün böyük önəm daşıyır"

İqtisadi, siyasi, sosial və s. sahələrdə qurulan əməkdaşlıq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın qurulmasına və davamlı olmasına təsirini göstərir. Mövcud münasibətlər çoxşaxəli, qarşılıqlı maraq əsasında qurulub, əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verilib. Azərbaycan ilə Gürcüstan arasında əlaqələr də möhkəm təməllər üzərində qurulub. İki ölkə arasında bu günə qədər imzalanmış sənədlər əməkdaşlıq üçün yeni imkanlar açıb. Aprelin 16-da Gürcüstanın Prezidenti Mixeil Kavelaşvilinin Azərbaycana rəsmi səfəri münasibətlərin yüksələn xətlə inkişafına sökənir. Qeyd edək ki, Mixeil Kavelaşvili prezident vəzifəsinə seçiləndən sonra ilk rəsmi səfəri Azərbaycana edib. Bu, Gürcüstan-Azərbaycan əlaqələrinin mahiyyətini, xalqlarımızın dostluğunu, qardaşlığını bir daha ifadə edir. Gürcüstanın Baş naziri də seçkilərdən sonra ilk rəsmi səfərini Azərbaycana etmişdir. "Təbii olaraq siyasi əlaqələr inkişaf edir, yüksəksəviyyəli təmaslar müntəzəm xarakter daşıyır, siyasi dialoq fəaldır. Yəni, iki dost, qardaş ölkə, sözün əsl mənasında, bir-birinə çox bağlıdır və beynəlxalq təşkilatlarda da daim bir-birini dəstəkləyir". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili ilə mətbuata bəyanatında söyləyib.



### "NEFT-QAZ LAYİHƏLƏRİ, NEFT-QAZ KƏMƏRLƏRİ, NƏQLİYYAT-KOMMUNİKASİYA LAYİHƏLƏRİ, SÖZÜN ƏSL MƏNASINDA, BÖYÜK ƏHƏMİYYƏT DAŞIYAN LAYİHƏLƏRDİR"





İki ölkənin dövlət və hökumət başçılarının qarşılıqlı səfərləri əlaqələrin inkişafında əsas amillərdən biridir. İki ölkə arasında imzalanan sənədlər münasibətlərin yeni istiqamətlər üzrə inkişafında əhəmiyyətli rol oynayır. Dövlətlərarası əlaqələrimizin zəngin tarixi var. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci ildə qurulub. Qarşılıqlı hörmət və etimada əsaslanan Azərbaycan-Gürcüstan əlaqələri ötən illər ərzində dinamik inkişaf edib. Ölkələrimiz arasında siyasi, iqtisadi, enerji, mədəni və digər sahələrdə səmərəli əməkdaşlıq formalaşıb. 1995-ci ildə Gürcüstanın Azərbaycanda, bir il sonra isə Azərbaycanın bu ölkədə səfirliyi fəaliyyətə başlayıb.

Dövlətlərarası münasibətlər həm siyasi, həm iqtisadi, həm də sosial-humanitar sahələri əhatə edir. Gürcüstan regionda Azərbaycanın ən yaxın müttəfiqlərindəndir. Azərbaycanın öz enerji resurslarını Avropa bazarlarına çatdırmasında, eyni zamanda, Şərqdən Qərbə gedən yüklərin daşınmasında Gürcüstan mühüm tranzit rol oynayır. Ölkələrimizi birləşdirən bir çox sərmayə layihələrinin böyük coğrafiya üçün önəmli olduğunu qeyd edən dövlətimizin başçısı deyib: "Azərbaycan və Gürcüstanın birgə həyata keçirdiyi neft-qaz layihələri, neft-qaz kəmərləri, nəqliyyat-kommunikasiya layihələri, sözün əsl mənasında, böyük əhəmiyyət daşıyan layihələrdir".

### "ƏGƏR BİZ BU GÜN AVROPANIN ENERJİ TƏHLÜKƏSİZLİYİ HAQQINDA DANIŞIRIQSA, BUNU AZƏRBAYCANSIZ, GÜRCÜSTANSIZ TƏSƏVVÜR ETMƏK MÜMKÜN DEYİL"

Gürcüstanla Azərbaycanı hər şeydən əvvəl Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TRASEKA kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Bununla paralel olaraq, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq ikitərəfli strateji əlaqələri daha da möhkəmləndirib. Tarixi dövrə nəzər salsaq görərik ki, 1998-ci il sentyabrın 7-8-də keçirilmiş Tarixi Böyük İpək yolunun bərpası üzrə Beynəlxalq Konfrans keçirilib. 1998-ci il oktyabrın 7-də Azərbaycanın Gürcüstanla sərhədində yeni körpünün açılışı olub, 1999-cu il aprelin 17-də isə Bakı-Supsa neft kəməri işə salınıb. Ötən dövrdə hər iki ölkənin həyatında tarixi əhəmiyyətə malik olan Bakı-Tbilisi-Ceyhan neft ixrac kəmərinin tikintisi sahəsində intensiv işlər aparılıb. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə bu münasibətlər daha da dərinləşmişdi. Nəhayət, 2005-ci il mayın 24-25-də neft kəmərinin Azərbaycan, oktyabrın 12-də isə Gürcüstan hissəsinin istifadəyə verilməsi mərasimi keçirildi. "Əgər biz bu gün Avropanın enerji təhlükəsizliyi haqqında danışırıqsa, bunu Azərbaycansız, Gürcüstansız təsəvvür etmək mümkün deyil. Hazırda Gürcüstan daxil olmaqla Azərbaycan 12 ölkəyə təbii qaz ixrac edir və bu ixrac Gürcüstan vasitəsilə həyata keçirilir. Nəqliyyat-kommunikasiya sahəsində əldə olunmuş nailiyyətlər, yeni inşa edilmiş dəmir yolları, limanlar həm Azərbaycanda, həm də Gürcüstanda böyük sinergiya yaratmış və əslində, Orta Dəhlizin ayrılmaz hissəsinə çevrilmişdir. Əgər bu gün biz Cənubi Qafqazda Orta Dəhliz layihəsindən danışırıqsa, bu, Azərbaycandan və Gürcüstandan keçən dəhlizdir. İldən-ilə ölkələrimizin ərazisindən keçən yüklərin həcmi artır və bu yüklərin həcminin artırılması üçün əlavə addımlar atılır", - deyə Azərbaycan Prezidenti bildirib.



### "BUNDAN SONRA CƏNUBİ QAFQAZIN QARA SƏHİFƏLƏRİ BAĞLANACAQ VƏ TARİXDƏ QALACAQ"

"Cənubi Qafqazda sülhün, əmin-amanlığın bərqərar edilməsi də bizim birgə maraqlarımızda olan məsələdir və burada həm Gürcüstan, həm Azərbaycan öz töhfəsini verir. Əfsuslar olsun ki, uzun illər ərzində Cənubi Qafqaz münaqişə, müharibə arenasına çevrilmişdir", - deyən Azərbaycan Prezidenti bildirib ki, bundan sonra Cənubi Qafqazın qara səhifələri bağlanacaq və tarixdə qalacaq: "Gürcüstan-Azərbaycan əlaqələri haqqında çox danışmaq olar. Sadəcə, onu bildirmək istəyirəm ki, bundan sonra da bizim əlaqələrimiz yüksələn xətlə inkişaf edəcək".

"Gürcüstan və Azərbaycan bir-birinin suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyir və buna görə cənab Prezidentə bir daha təşəkkür etmək istərdim". Bu sözləri Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili Azərbaycan Prezidenti İlham Əliyev ilə mətbuata bəyanatında deyib. Mixeil Kavelaşvili bildirib ki, Gürcüstan həmişə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin güclü tərəfdarı olub.

"Təəssüf ki, son vaxtlar ölkələrimiz dəfələrlə ikili standartların və xarici qüvvələrin daxili işlərə müdaxiləsinin obyektinə çevrilib. Çoxsaylı səylərə baxmayaraq, biz bu təhlükələri qətiyyətlə aradan qaldırırıq, regionun təhlükəsizliyini və sabitliyini təmin edirik", - deyən Gürcüstanın Prezidenti bildirib ki, heç bir üçüncü ölkə və ya təşkilatın xalqlarımız üçün nəyin yaxşı olduğunu bizdən yaxşı bilməsi mümkün deyil: "Şadam ki, Azərbaycan ilə Gürcüstan arasında ümumi maraqların müdafiəsi sahəsində əməkdaşlıq intensivləşib".

### ÇOXƏSRLİK DOSTLUQ VƏ QARDAŞLIQ MÜNASİBƏTLƏRİ MÖHKƏM TƏMƏL ÜZƏRİNDƏDİR

Bildiyimiz kimi, Azərbaycan-Gürcüstan dostluğunun çox qədim tarixi kökləri var. Əsrlər boyu qonşu olan Azərbaycan və gürcü xalqları arasında heç bir zaman ciddi problem, münaqişə olmayıb. Azərbaycan-Gürcüstan dostluğu Cənubi Qafqazda əməkdaşlığın və təhlükəsizliyin qarantına çevrilib. Gürcüstanda yaşayan azərbaycanlılar Gürcüstanın dövlətçiliyinə dəstək olmuşlar. Dövlətlər tarixi dostluq, mehriban qonşuluq əsasında yaşamışlar. Regionda sabitliyin, sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi üçün bir çox səmərəli addımlar atılıb. Əlbəttə ki, bu münasibətlər qarşılıqlı etimada əsaslanır.

Humanitar sahədə əməkdaşlığı da xüsusi vurğulamaq lazımdır. Heydər Əliyev Fondu tərəfindən Gürcüstanda bir çox layihələr həyata keçirilib. Məsələn, Tbilisi şəhərində Azərbaycanın görkəmli şəxsiyyətlərinin - Mirzə Şəfi Vazehin, Mirzə Fətəli Axundovun, Həsən bəy Ağayevin və Fətəli xan Xoyskinin qəbirüstü abidələri yenidən qurulub və xiyaban yaradılıb. Marneuli rayonunun Algeti (Gorarxı) kənd inzibati dairəsində yerləşən 3 kəndə içməli su xətti çəkilib, Algeti kəndində XVI əsrə aid qədim məscid bərpa olunub, Bolnisi rayonunun Həsənxocalı və Cəfərli kəndlərində yeni məktəb binaları inşa edilib, Qardabani şəhərindəki 3 saylı, Tbilisi şəhərində M.F.Axundzadə adına 73 saylı Azərbaycan məktəblərinin, Dmanisi şəhərindəki 2 saylı məktəbin və bu rayonun Kirovisi kəndində məktəbin, Marneuli şəhərində 3 və 7 saylı məktəblərin binaları əsaslı təmir olunub, Qardabani rayonunun Qaracalar kəndində məktəb binası inşa edilib və Dmanisi şəhərində Heydər Əliyev adına Təhsil Mərkəzi yaradılıb. Gürcüstan prezidentinin Azərbaycana səfəri ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə töhfə verəcəkdir. Ölkələrimiz arasında əlaqələrin və əməkdaşlığın inkişaf dinamikası onu deməyə əsas verir ki, Azərbaycan-Gürcüstan münasibətləri gələcəkdə daha da genişlənəcək və yeni sahələri əhatə edəcək. Sınaqdan çıxmış yüksəksəviyyəli strateji və mehriban qonşuluq münasibətləri daha da möhkəmlənəcək, Gürcüstanın və Azərbaycanın milli maraqlarının həyata keçirilməsində yeni müstəviyə keçəcək. Göründüyü kimi, dövlətləri birləşdirən çoxtərəfli əlaqələr, eləcə də çoxəsrlik dostluq, qardaşlıq münasibətləri möhkəm təməl üzərindədir.

***Zümrüd BAYRAMOVA***

# Heydər Əliyev Fondu: gələcək nəsillərə qayğı

Müstəqil Azərbaycanda Ümummilli Lider Heydər Əliyev ideyalarını davam etdirən və mövcud prinsiplər və ənənə ilə fəaliyyət göstərən, Heydər Əliyev Fondunun şaxəli fəaliyyəti Azərbaycanın sosial, iqtisadi, mədəni həyatında özünü göstərir. Ümummilli Lider Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, Onun yaratdığı milli dövlətçilik ideyalarının yeni nəsillərə daim aşılamaq məqsədi ilə yaradılan Fondun genişmiqyaslı fəaliyyəti onu nəinki Azərbaycanda, hətta onun hüdudlarından kənarda belə əks-səda doğurmasına gətirib çıxarıb. Müasir dünyamızın çağırışlarına cavab verən layihələri ilə milyonlarla insanın sevgisini qazanan Azərbaycanın Birinci Xanımı, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu fəaliyyəti özünün vurğuladığı kimi, sarsılmaz həqiqətlərə söykənir: "Əxlaq və mənəviyyat, insaniyyət və şəfqət, inam və məhəbbət, xeyirxahlıq və saf niyyətlər Yaradanın hər birimizə bəxş etdiyi ən gözəl keyfiyyətlərdir". Valideyn himayəsindən







məhrum olunmuş uşaqların rifah halının yaxşılaşdırılması, hüquqlarının qorunması, cəmiyyətdə hərtərəfli inkişafı, onlara yüksək səviyyədə səhiyyə xidmətlərinin göstərilməsi Heydər Əliyev Fondunun diqqətdə saxladığı ən vacib məsələlərdəndir. Fondun prezidentinin təşəbbüsü ilə hazırlanmış "Uşaq evləri və internat məktəblərinin inkişafı Proqramı" çərçivəsində xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldıqları onlarla internat məktəbi və uşaq evləri əsaslı təmir edilmiş, ən müasir avadanlıqlarla təchiz olunmuşdur. Hətta, kimsəsiz uşaqlara ev şəraitinə uyğun mühit yaradılmışdır. Gənc nəslin təhsili və sağlamlığının qorunması Heydər Əliyev Fondunun fəaliyyətinin prioritet istiqamətlərindən biri olduğundan Fond ölkədə həyata keçirilən təhsil və səhiyyə islahatlarında xüsusi fəallıq nümayiş etdirir.

## HUMANİST VƏ NƏCİB ƏMƏLLƏRİN TƏZAHÜRÜ

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva aprelin 15-də Bakının Nəsimi rayonunda yerləşən 1 saylı körpələr evində və Nizami rayonundakı 1 saylı uşaq evi sosial xidmət müəssisəsində olmaları məhz humanist əməllərin təzahürüdür. 1 saylı körpələr evində hazırda 3 yaşadək 63 uşaq var. Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mütəmadi surətdə burada olur, körpələrin sağlamlıqları, onların yaşayış şəraiti ilə daim maraqlanır, balacalara xüsusi qayğı ilə yanaşırlar.

Qeyd edək ki, körpələr evinin 1930-cu ildə tikilən binasında Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir və yenidənqurma işləri aparılıb. 2015-ci il mayın 10-da Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə körpələr evinin açılışı olub.

Daim nəcib təşəbbüsləri ilə seçilən Heydər Əliyev Fondu valideyn himayəsindən məhrum olan uşaqların fiziki və mənəvi cəhətdən sağlam yetişməsinə, onların savadlı olmasına xüsusi diqqətlə yanaşır. Beləliklə, gələcəyimiz olan uşaqlarla bağlı Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətə mühüm töhfələr verir.

Sonra Birinci vitse-prezident Mehriban Əliyeva və Leyla Əliyeva 1 saylı uşaq evi sosial xidmət müəssisəsində olublar.

Birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva bu müəssisəni də tez-tez ziyarət edir, bayram günlərində buranın sakinləri ilə görüşür, onları hədiyyələrlə sevindirirlər.

Hazırda 1 saylı uşaq evi sosial xidmət müəssisəsində 3 yaşdan 18 yaşadək 100 uşaq var. Onların təhsil alması, idmanla məşğul olması və sağlamlıqlarının təmin edilməsi üçün burada hər cür şərait yaradılıb. Müəssisənin sakinləri sevimli qonaqları olan birinci xanım Mehriban Əliyeva və Leyla Əliyevanı həmişə şeir, mahnı və ədəbi proqramla qarşılayıblar. Bu dəfə də istisna olmayıb.

Heydər Əliyev Fondu yarandığı gündən bu müəssisəni diqqətdə saxlayır, burada yaşayan yeniyetmələrin ali təhsil müəssisələrində oxuması, onların işlə təmin edilməsi, peşə vərdişlərinin aşkara çıxarılması istiqamətində mühüm işlər görür. Fondun dəstəyi ilə əsaslı təmir olunan bu müəssisənin açılışı 2005-ci ildə Azərbaycanın birinci xanımının iştirakı ilə olub. 2017-ci ildə isə buranın iki sakini ailə həyatı qurub. Onların toyu Heydər Əliyev Fondu tərəfindən təşkil edilib, gənclərə mənzil və avtomobil hədiyyə olunub.

Heydər Əliyev Fondunun bu sahədə həyata keçirdiyi tədbirlər isə birbaşa genefondun qorunmasına, bu sahədə mövcud problemlərin əsaslı həllinə yönəlmişdir. Məktəbəqədər hazırlıq müəssisələrinin, uşaq bağçalarının müasir standartlar səviyyəsində qurulması, onların maddi-texniki bazasının gücləndirilməsi Heydər Əliyev Fondunun diqqət mərkəzindədir. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində ölkəmizdə uşaq evi və internat məktəbi əsaslı təmir olunub və bu müəssisələrdə yaşayan uşaqların problemlərini daim diqqətdə saxlanılıb. Müasir tələblərə cavab verən uşaq evlərində inşa edilmiş hamam, üzgüçülük hovuzu, yay konsert meydançası, stadion, iclas, idman, rəqs salonları, həyətdəki yaşıllıqlar, uşaqların əl işləri muzey-sərgisi burada balacaların fiziki və əqli cəhətdən sağlam böyüməsi üçün hər cür şərait yaradıldığına, Fondun xeyirxah fəaliyyətinin bəhrəsinə əyani sübutdur.

## SABAHIN QURUCUSU, YARADICISI

Bu günün yeniyetməsi, körpəsi sabahın qurucusu, yaradıcısıdır. Hər bir ölkənin gələcək inkişafı məhz onlardan asılıdır. Odur ki, onların sağlam mühitdə böyüməsi, tərbiyə alması üçün dövlətimiz tərəfindən tədbirlər görülür. Bu qayğı sağlam düşüncəli, sağlam ruhlu, sağlam vücudlu insanların yetişməsi ilə yanaşı, onların vətənə bağlı, vətən sevgili vətəndaş kimi böyüməsinə xidmət edir. Təbii ki, yetişən nəslin xalqa bağlı şəkildə böyümələri və formalaşmaları hər bir dövlət üçün prioritet məsələdir. Uşaqların layiqli vətəndaş kimi yetişmələri, uşaqlarla bağlı sosial problemlərin həlli, uşaq hüquqlarının etibarlı təminatı baxımından dövlət səviyyəsində bütün addımlar atılır. Cəmiyyətimizin zərif və kövrək nümayəndələri olan uşaqların sağlamlığı üçün də bu gün ölkəmizdə hər cür şərait yaradılıb. Uşaqların qidalanmasının müdafiəsi sahəsində dövlət siyasətinin əsas istiqamətləri kimi, uşaqların qidalanması ilə bağlı məqsədli dövlət proqramları hazırlanaraq həyata keçirilib. 2006-2010-cu illəri əhatə edən "Ana və uşaqların sağlamlığının qorunması üzrə Tədbirlər Proqramı" çərçivəsində əhəmiyyətli islahatlar aparılıb. 2014-cü il 13 iyun tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi barədə" Sərəncam da gənc nəslin sağlamlığının yüksək səviyyədə qorunmasına xidmət edib. Proqram çərçivəsində respublikamızda ana və uşaqların sağlamlığının qorunması sahəsində tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi, həmçinin kadr hazırlığının gücləndirilməsi, regionallaşdırma prinsipi əsasında perinatal yardım islahatlarının davam etdirilməsi, doğuşayardım tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, uşaqlara, o cümlədən yenidoğulmuşlara, körpələrə göstərilən tibbi xidmətin keyfiyyət və səmərəliliyi yaxşılaşdırılıb. Zəruri vəzifələrin həyata keçirilməsi davam etdirilir.

Həmin tədbirlərin davamlılığının təmin edilməsində Azərbaycan Prezidenti İlham Əliyevin 2013-cü il 10 dekabr Sərəncamı ilə təsdiq olunmuş "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın da əhəmiyyətli rolu var. Bu Dövlət Proqramı uşaqlar arasında xəstələnmənin, habelə sağlamlıq imkanlarının məhdudluğunun və ölümün səviyyəsinin azaldılmasında əhəmiyyətli rol oynayıb.

Uşaqların sağlam həyat tərzinin təmin edilməsi, sağlamlıqlarının möhkəmləndirilməsi istiqamətində də ciddi addımlar atılır. Sevindirici haldır ki, ölkəmizdə son illər görülən genişmiqyaslı işlər sırasında ana və uşaqların sağlamlığının qorunması istiqamətində həyata keçirilən tədbirlər mühüm yer tutur. Bu və ya digər tədbirlər bu sahəyə dövlət qayğısının təzahürüdür.

## GÖRDÜYÜ İŞLƏRDƏ TƏVAZÖKARLIQ

Heydər Əliyev Fondunun "Təhsilə dəstək", "Diabetli uşaqlara ən yüksək qayğı" kimi layihələri Mehriban Əliyevanın humanizm prinsiplərindən qaynaqlanır. Bütün bu reallıqlar Mehriban Əliyevanın bir qadın, ana, ictimai xadim kimi fəaliyyətində reallığa çevrilib.

Fəaliyyəti dövründə əldə etdiyi nailiyyətlər Fondun qeyri-hökumət təşkilatı olaraq həyata keçirdiyi layihələri ilə təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə böyük nüfuz qazandığını göstərir. Gördüyü işlərində təvazökarlıq göstərir. "...Ömür boyu mənim həyat amalım belə olmuşdur ki, etmək istədiyin yaxşılığı heç vəchlə gözə çarpdırmaq olmaz. İndi mən bundan, demək olar ki, məhrumam. Birinci xanım statusunda mən elə bir xeyriyyə aksiyası keçirə bilmirəm ki, o, ictimaiyyətin diqqətini cəlb etməsin. Bu isə özünü göstərməkdən tamamilə uzaq adam kimi mənə kifayət qədər çətin olur", - deyə Mehriban Əliyeva bildirib. Mehriban xanım Əliyeva həqiqətən gördüyü işlərlə kimliyini, böyüklüyünü bu dünyada gördüyü işlərlə reallaşdırır. Həyat və vəzifə missiyası bir etalon olaraq cəmiyyətə təqdim olunur. Bu təqdimatda Azərbaycan və onun inkişafı dayanır. Azərbaycanın çiçəklənməsi, beynəlxalq nüfuzunun artmasına böyük töhfələr verən Heydər Əliyev Fondunun gələcək fəaliyyətinin əsasında daha da genişmiqyaslı layihələrin həyata keçirilməsi dayanır.

***NƏZAKƏT ƏLƏDDİNQIZI***

# Müvəqqəti məskunlaşma, yaxud "KİRAYƏ ÖLKƏ"

Ermənistanın tədricən öz subyektivliyini itirdiyi təkzib edilə bilməz və bunu sübut edən faktlar kifayət qədərdir. Məhz bu təkzibedilməzliyi dərk edə bilən bəzi haylar özləri də müvəqqəti yaşayış məskənində olduqlarını etiraf edirlər. Bəzi erməni əsilli siyasətçilər ölkələrinin müstəqil dövlət deyil, getdikcə kimlər üçünsə "regional mehmanxana", özləri üçün isə "kirayə ölkə" olduğunun artıq fərqindədirlər. Əslində, haqlıdırlar. Çünki bir halda ki, Ermənistan heç də suveren, müstəqil dövlət olaraq, öz siyasətini özü təyin etmirsə, bəzi ölkələrin maraqlarına xidmət edən, onların maraqlarının qarşılaşdığı məkana çevrilirsə, deməli, bu ölkə sadəcə olaraq, kimlər üçün müvəqqəti mehmanxana, hayların özləri üçün isə "kirayə ölkə" olaraq qəbul olunmalıdır



## Regional müşahidəçilər, "casuslar" bölgədə "mövqe" əldə etmək üçün işğalçı ölkədən bir müvəqqəti məskunlaşma kimi istifadə edirlər

Təhlükəsizliyin təminatı ilə bağlı bütün dünya ölkələrinin maraqlı olmalı olduğu, hətta buna maraqla yanaşdığı da təkzibedilməzdir. Ölkələrin hər zaman təhlükəsizliyin təminatı istiqamətində müvafiq addımlar atmaları məntiqi, eləcə də başadüşüləndir. Məsələ burasındadır ki, yeganə Ermənistan kimi kiçik, zəif, çox cılız bir dövlət guya təhlükəsizliyinin təmin edilməsi maraqları naminə ancaq kiminsə ətəyində gizlənmək, hansısa ağanın nökərinə çevrilmək üçün əldən-ayaqdan gedir. Beləliklə də, kimlər üçünsə Ermənistan bölgəmizdə, regionuzda müvəqqəti mehmanxana kimi fəaliyyət göstərir. Heç buna haylar məhəl də qoymurlar. Nə də ki, guya nə vaxtsa olan müstəqilliklərini itirmək qorxusu da hiss etmirlər, çünki onlar Ermənistan ərazilərini bir növ kirayə mənzil kimi görürlər və bilirlər ki, həmin əraziləri yaxın zamanda izsiz şəkildə tərk etməli də olacaqlar.



Rəsmi İrəvan elə hesab edir ki, guya müttəfiq hesab etdikləri ağaları nə qədər çox olarsa, bir o qədər yaxşıdır. Eyni ilə müvəqqəti yaşayış yerində, kirayəyə bənzəyən ölkədə kimlərinsə var-gəl etməsi, qorxudan yuxuların qaçıranlar üçün əslində, kompleksdən, qorxu kompleksindən bir az da olsa, yaxa qurtarmaq kimi görünür. İndiyə qədər Ermənistanın məhz rusları öz ərazilərində yerləşdirmək istəkləri, İranla da bu xüsusda münasibətlərdə maraqlı olmaları da anlaşılandır. Qərbin oyuncağına çevrilən Ermənistan gah Rusiyanı, gah da İranı "başda" otrutmağa çalışır və bunun nə demək olduğunu, çətin ki, başa düşürlər. Heç başa düşməyə də cəhd etmirlər, çünki özlərini belə öz ölkələrində kirayənişin kimi sayırlar. Buna görə də regional müşahidələr, bölgədə mövqe əldə etmək üçün işğalçı ölkədən bir müvəqqəti məkan kimi istifadə edilməsini adi şəkildə də qəbul edirlər.

## Kirayə ölkənin kirayənişinləri üçün qonağın, gələnin kim olmasının zərrə qədər də fərqi ola bilməz

Çox güman ki, amerikalıları, fransızları özlərinə daha yaxın görmək istəyən ermənilər ABŞ və Fransaya öz ölkələrini, Ermənistanı "peşkeş" belə etməkdən də çəkinmirlər. Özlərinə məxsus olmayan kirayə ölkənin kirayənişinləri üçün məhz qonağın, ölkəyə gələnin kim olmasının fərqi nədir? Əlbəttə ki, heç bir fərqi yoxdur. Yəni, özlərini kirayə ölkədə hesab edən haylar üçün kimin meydan suladığı, kimin harada olduğu qətiyyən əhəmiyyət kəsb edə bilməz. Kəsb etmir də. Elə ona görə də kimi gəldi öz kirayə ölkələrinə dəvət edirlər və zərrə qədər də "itgi" barədə düşünmürlər. Bir halda ki, ölkə, ərazi onlara məxsus deyil və özləri də kirayənişin kimidirlər, o zaman nəyi itirə bilərlər? Buraxıblar kimi oldu öz kirayə ölkələrinə və hərdən onlardan istifadə etməyi düşünürlər. Məsələ burasındadır ki, hansısa ölkələr həmin o kirayə ölkəyə girəndə yalnız özlərinin regional maraqları naminə haylara "yaxınlıq verirlər" və İrəvana hansısa dəstək də həmin maraqlara görədir.

Ümumiyyətlə, Qərb ilk növbədə Cənubi Qafqazda "özünə yer eləmək" üçün Ermənistandan istifadə edir və hansısa iyanələr, yardımlar da hayların başlarını qatmaq, tovlamaq üçündür. Görünən odur ki, haylar da özlərini guya yaxşıca tovlanmış kimi aparırlar və Qərbin belə iyanələrinə görə ölkələrinin suverenliyini, müstəqilliyini nəzərə belə almırlar. Bəli, Qərb indi Ermənistanda öz imkanları xatirinə, məhz regional müşahidələr aparmaq üçün "lövbər" salıb. Daha dəqiq desək, regional müşahidələrdən tutmuş, bölgədə mövqe əldə etməyə qədər işğalçı ölkədən bir məkan kimi Qərb istifadə edir. Bir sözlə, Qərb üçün indi Ermənistan sadəcə olaraq, müvəqqəti məskunlaşma yeri, "regional mehmanxana", uzaq başı, kirayə ölkə hesab olunur. Əslində, hayların özləri üçün də belə hesab olunur. Axı onlar özləri də bizim regionumuza, ələlxüsus da, İrəvan kimi tanınan və bizə məxsus olan torpaqlara, ərazilərə sonradan gəliblər. Elə kirayənişin kimi gəliblər, amma ərazi iddiası ilə çıxış etmək qədər həyasızlığı haylar özlərinə rəva biliblər. İndi də nəyi desən, onu da rəva bilərlər.





## Hayların müvəqqəti yaşayışını, Ermənistanın "kirayə ölkə" olmasını heç bir qonşusu ölkə normal hesab etmir

Haylar yaxşı bilirlər ki, 2018-ci ildən başlayaraq Ermənistan sistemli şəkildə öz müttəfiqlərindən məhrum olmağa başladı və bunun səbəbsiz olmadığı da bəllidir. Sözsüz ki, məhrumiyyət dalğası təsadüfi şəkildə baş vermədi və səbəbləri də hələ zamanında bəlli idi. Bəlli idi ki, hayların "maskalı şoular" təşkil etmələri, məsuliyyətsiz davranışları, ələlxüsus da qanunsuzluqları bütün qonşuları və müttəfiqləri ilə münasibətləri tamamilə korlamağa gətirib çıxarmalıdır və belə də oldu. İndi Ermənistan barəsinddə hansısa müttəfiqlik münasibətlərindən danışmaq belə mümkün deyil. Heç bir qonşusu dövlətin, hətta Ermənistanın ən yaxın dəstəkçisi olan qonşusu İran və hələ də ətəyindən buraxmaq istəmədiyikləri Rusiya ilə münasibətləri də hayları qane edən deyil. Qane edə də bilməz, çünki artıq İran da, Rusiya da görür ki, Ermənistan nə edirsə, hansı yolu seçirsə, Qərbin tələbi ilə edir.

Farslar da, ruslar da hayların Qərbin oyuncağına çevrildiyini xoş qarşılamırlar və Ermənistanın bir "regional mehmanxana" olaraq istifadə edilməsini, nəinki başqaları, hətta hayların özləri ümün belə kirayə ölkə kimi qəbul edilməsini işğalçı ölkənin heç bir qonşusu normal qarşılamır.

Ən yaxın saydıqları farslarla, ruslarla haylar razılaşa bilmirlər, çünki avropalılar üçün Ermənistanın bötövlükdə Cənubi Qafqazın işlərinə burun soxanların "mehmanxanası" kimi "istifadəyə verməsi" heç birinin ürəyincə ola bilməz. Ermənistanın qonşu dövlətləri başa düşürlər ki, "qonaq çağırılan" avropalılar ən azından regionu izləmək üçün işğalçı ölkənin ərazisində özlərinə "yer" ediblər və bundan sonra onların daha "nələr edəcəyi" müəmmalı olaraq qalır. Hər halda yaxşı heç nə etməyəcəkləri qənaətində olanlar çoxluq təşkil edirlər. Ermənistandan fərqli olaraq, Rusiya da, İran da, digər qonşu ölkələr də Avropa casuslarının işğalçı ölkə ərazisində olmasına çox pis baxırlar, çünki rəqibləri tərəfindən izlənilmə qətiyyən qəbul edilə bilməz. Rəsmi İrəvan isə bütün bunları nəzərə almadan, müttəfiq qazanmaq üçün öz ərazisini kimlərinsə ayaqları altına atır, Qərbin, avropalıların regiona soxulmaq üçün apardıqları siyasətə "töhfə" verir və "regional mehmanxana" kimi Ermənistanın istifadə edilməsini, "kirayə ölkə" olaraq tanınmasını elə belə də qəbul edir.

*Ardı Səh. 5*

# Müvəqqəti məskunlaşma, yaxud “KİRAYƏ ÖLKƏ”

Əvvəli Səh. 4

### Avroplı müşahidəçiləri, yəni, casusları dəvət etməklə və yerləşdirməklə, Ermənistan sadəcə olaraq, qonşuları ilə öz münasibətlərini də korlayır

Bir çox erməni siyasətçiləri belə etiraf edirlər ki, Ermənistanda avropalı müşahidəçilərin olması heç də müsbət nəticələr vəd etmir və bu addımın çox pis qarşılanması da məntiqidir, doğrudur. Məsələn, erməni əsilli politoloq Edqar Elbakyan ”Pressinq” proqramında açıq şəkildə qeyd edir ki, Ermənistanda avropalı müşahidəçilərin olması, yəni İrəvanın Avropdan regionu müşahidə edən ”qonaq”, yəni, cəsus çağırıb öz ərazidində yerləşdirməsi münaqişə bölgəsində problemləri həll etmək demək deyil. O, bildirir ki, bununla hansısa təhlükəsizliyin təminatına da nail olmaq olmaz və müşahidəçilərin olması onlara güc tətbiq edilməsinə belə maneə sayılmır. Politoloq Elbakyan avropalı müşahidəçilərə işarə edərək, qeyd edir ki, əslində, onların missiyası Rusiya Federasiyasının regiondakı hərəkətlərini izləməkdir. Beləliklə də, politoloq izah etməyə çalışır ki, Ermənistan avroplı müşahidəçiləri, yəni, cəsusları dəvət etməklə və yerləşdirməklə, sadəcə olaraq, qonşuları ilə öz münasibətlərini korlamış olur.

Həqiqətən də görürük ki, Ermənistan hakimiyyəti, avropalı müşahidəçilərdən və özəl mühafizə şirkətindən tutmuş NATO-ya qədər hər kəsi Ermənistana dəvət edir, lakin bununla belə, eyni zamanda təhlükəsizlik məsələləri də həll olunmamış qalır. Çünki Qərb üçün Ermənistanın maraqları, onun təhlükəsizlik məsələləri heç bir əhəmiyyət kəsb etmir. Əgər işğalçı ölkənin təhlükəsizliyi ilə hansısa ifadələr uydurulursa, yaxud, region ölkələrinə qarşı ara-sıra bəzi ədalətsiz fikirlər səsləndirilirsə, bu da gözdən pərdə asmağın, eləcə də ikili standartların təzahürü kimi təssürat bağışlayır. Başqa heç nə...

### Görünür, ATƏT-in Minsk Qrupu üçün də Ermənistan ”kirayə ölkə” sayılır və ”kirayənişinlər” özləri də bundan razıdırlar

Təhlükəsizliyinin təminatı üçün rəsmi İrəvanın hansısa ölkəyə yalvarması, öz ərazisini ”regional mehmanxana” etməsi, ”kirayə ölkəyə” çevirməsi nəinki Ermənistanın problemlərini həll etmir, həm də ölkəni subyektivlikdən, suverenliyindən, müstəqilliyindən məhrum edir. Avropalı müşahidəçi adı ilə Avropa cəsuslarını öz ərazisində yerləşdirən Ermənistan ölkəsini cəsusluq edənlər üçün məkana çevirir və regionu izləmələrinə şərait yaratmaqla heç də təhlükəsizliyini təmin etmir. Əksinə, avropalı müşahidəçilərin Ermənistanda olması həm region üçün, həm də elə həmin ölkənin özü üçün arzuolunmazdır. Çünki Qərb yekunda öz ambisiyaları naminə elə öz ölkəsini cəsus məkanına çevirən dövləti də asanlıqla ”hədəfə” ala bilər və İrəvan heç də hansısa bir ölkə üçün ”yağlı tikə”, yaxud toxunulmaz sayılmır ki, bu zaman ”sığortalanmış” olsun. Əlbəttə, reallıq bundan ibarətdir ki, öz müşahidəçilərini işğalçı ölkənin ərazilərinə yerləşdirən Qərb getdikcə Ermənistanın da yerinə qərarlar verir, onun müstəqilliyi, suverenliyi barədə düşünmür də. Bu isə o deməkdir ki, Ermənistan müstəqil, suveren ölkəyə deyil, ”regional menmanxana”, həmçinin, ”kirayə ölkə” kimi tanınır.

Son zamanlar Ermənistanın məhz ATƏT-in Minsk Qrupu kimi tanınan və artıq siyasi səhnədə olmayan bir qurumla bağlı mövqeyi də nəinki diqqəti cəlb edib, xüsusən ikrah doğurub. Bilirik ki, həmin o ATƏT-in Minsk Qrupu ötən əsrin sonlarında, məhz Ermənistanın bizim ərazilərimizə təcavüzündən sonra, ələlxüsus da münaqişənin aradan qaldırılması məqsədi ilə yaradılmışdı. Düz 30 ilə yaxın müddət ərzində də, bölgələrə turist səfərləri istisna olmaqla, heç bir fəaliyyət də ortaya qoymadı. Nə münaqişənin nizamlanmasına nail oldu, nə də münaqişənin məhz Azərbaycanın öz gücü, öz qüdrəti ilə həll edilməsi zamanında bir addım belə atmadı. Əksinə, ədalətin bərpasına, torpaqların işğaldan azad edilməsi ilə münaqişənin həll olmunmasına mane olmaq üçün bütün mümkün vasitələrə əl atdı. Bunlar bir tərəfə, hələ 44 günlük müharibə bitdikdən sonra da manelər törətmək cəhdi ilə ortaya atıldığı da bəllidir. Maraqlı suallar ortaya çıxır ki, belə bir təşkilat nəyə lazım gəlir ki, hələ də siyasi səhnədə ”artistlik” edir? Heç bir iş görmədiyi bir ayrı, münaqişənin həlli üçün yaradılan təşkilat münaqişənin həllindən sonra nəyə lazımdır? Bəs niyə lazımsız oldiğunu görərək ”getmək” və meydanı tərk etmək istəmir? Yoxsa, hələ də bu təşkilata ”qucaq açılması” mane olur? Kimlər qucaq açırlar və nədir məqsəd ki, 30 ilə daşıdaş üstünə qoymayan təşkilat belə ”dəyərli” sayılmalı olur? Görünür, elə ATƏT-in Minsk Qrupu üçün də Ermənistan kirayə ölkə sayılır və kirayənişinlər özləri də bundan razıdırlar.

### ATƏT-in Minsk Qrupu kimi tanınan təşkilat üçün öz ölkələrini ayaq altına atanlar ”kirayə ölkə” olduqlarını bir növ, qəbul edirlər...

İşğalçı ölkənin, Ermənistanın xarici işlər naziri Mirzoyanın məhz ATƏT-in Minsk Qrupu ilə bağlı son sayıqlamaları diqqəti cəlb etməyə bilməz və bütün dünya ictimaiyyəti üçün onun dedikləri sadəcə gülməli təsir bağışlayıb. ”Azərbaycan tərəfinin səsləndirdiyi bəzi fikirlərə, xüsusən də ATƏT-in Minsk qrupu mövzusuna gəlincə, qeyd etmək istərdim ki, bununla bağlı bizim mövqeyimiz aydındır. Münaqişənin bitdiyi və bu faktın sülh müqaviləsi ilə təsdiqləndiyini etiraf etsək, o zaman nə Minsk Qrupunun, nə də ona tabe olan strukturların artıq faydası var. Məhz bu məntiqə əsaslanırıq ki, biz eyni gündə iki sənəd imzalanmasını təklif etdik. Sülh müqaviləsi, o cümlədən ATƏT və ya onun üzvü olan dövlətlərdə Minsk Qrupunun buraxılması prosesinə başlayacaq birgə bəyanat imzalayaq”, deyən Mirzoyan guya məntiqə istinad etdiyi zaman, ən məntiqsiz ifadələr səsləndirib. Əvvəla, bir gündə iki sənəd nə sözdür? Ermənistan heç bircə sənədi belə illər boyu imzalaya bilmir ki, iki sənədi bir gündə imzalamaq iddiası ilə bu yekəlikdə nazir belə absurd çıxış edir. Məsələnin, hüquqi tərəfi bir yana, bunun fiziki olaraq mümkün olub-olmaması haqqında heçmi düşünməyib həmin o Ermənistan XİN rəhbəri?

Yenə də Ermənistan tərəfinin ”müəmmalı gediş” etdiyini görürük. Yenə də rəsmi İrəvan hansısa gücləri, daha dəqiq desək, regionda müvəqqəti məskunlaşmaqla cəsusluq edənləri ”regional mehamanxana” sayılan ”kirayə ölkə” ”əlində saxlamaq” fikrindədir. Hələ də haylar bütövlükdə, Cənubi Qafqazda cəsus sayılanlar üçün öz ölkələrinin alət olaraq istifadə edilməsini nəinki məqbul hesab edirlər, buna hətta can atırlar. ATƏT-in Minsk Qrupu kimi təşkilatları, onların haqq-ədalət tanımayan ”kirayənişinlərini” bölgədə, regionda saxlamqda maraqlı görünürlər. Deməli, elə məhz başda Mirzoyan kimi XİN rəhbəri olmaqla hələ də haylar ATƏT-in Minsk Qrupu kimi tanınan təşkilat üçün öz ölkələrini ayaq altına atırlar, ”kirayə ölkə” olduqlarını bir növ, qəbul edirlər.

*İnam Hacıyev*

# Bəhreyn mediası: “Azərbaycan regional enerji və nəqliyyat mərkəzinə çevrilib”

Bəhreyn Krallığının ingilis dilində nəşr olunan ”The Daily Tribune News of Bahrain” qəzetində ”Yeni dünya nizamına doğru” sərlövhəli məqalə dərc edilib. Azərbaycan səfiri Şahin Abdullayevin müəllifi olduğu məqalədə aprelin 9-da ADA Universitetində Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə keçirilən ”Yeni dünya nizamına doğru” adlı beynəlxalq forumundan bəhs edilib və bu tədbirin Azərbaycanın yeni qlobal düzənin formalaşmasında fəal iştirak edən subyekt kimi mövqeyini konseptual və simvolik şəkildə ortaya qoyduğu bildirilib.




Yazıda vurğulanır ki, Azərbaycan Prezidenti İlham Əliyevin forumda etdiyi çıxış yalnız region ölkələrinə deyil, həm də beynəlxalq ictimaiyyətə ünvanlanan ciddi mesaj idi. Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər, Ermənistanla normallaşma prosesinin konturlarını, mümkün sülh sazişinin şərtlərini və regionda gələcək əməkdaşlıq imkanlarını aydın şəkildə ortaya qoyur. Bu çıxış həm də Azərbaycanın geosiyasi baxışının, regional transformasiya layihələrinin və təhlükəsizlik arxitekturasının konturlarını müəyyənləşdirir.

Məqalədə hazırda Azərbaycanın regional enerji və nəqliyyat mərkəzinə çevrildiyi, Ermənistanın bu imkanlardan kənarda qalaraq həm iqtisadi resurslardan, həm də geosiyasi təsirdən məhrum olduğu diqqətə çatdırılıb. Müəllif bildirib ki, sözügedən Forumda Prezident İlham Əliyevin çıxışı təkcə diplomatik bəyanat deyil, həm də postmünaqişə dövrü üçün strateji yol xəritəsidir. Azərbaycan öz üzərinə düşəni açıq şəkildə ifadə edir: sülh istəyi var, amma bu, güzəşt yox, hüquq və reallıq üzərində qurulmalıdır.

Sülh sazişinin imzalanması tarixi bir mərhələ ola bilər, lakin onun reallaşması üçün etimad quruculuğu, mərhələli iqtisadi əməkdaşlıq və qarşılıqlı siyasi iradə vacibdir. Ermənistan bu çağırışlara cavab verərsə, Cənubi Qafqazda inteqrasiya olunmuş, dayanıqlı və proqnozlaşdırılan gələcək mümkündür.

Səfir Ş.Abdullayev məqaləsində 2023-cü ildə Azərbaycanın Avropa İttifaqına 8 milyard kubmetrdən çox qaz ixrac etdiyini, ölkəmizin infrastruktur layihələrinə milyardlarla sərmayə yatırdığını və bütün bunların Bakını enerji sabitliyinin təminatçısına çevirdiyini vurğulayıb. Müəllif məqaləsinin sonunda Azərbaycanın artıq proseslərin iştirakçısı yox, yeni dövrün memarlarından olduğunu və baş tutan forumun dəyişən qlobal reallığı düzgün ifadə etdiyini oxucuların diqqətinə çatdırıb.

# “Medianın rolu heç vaxt bu qədər həlledici olmayıb”



“Medianın rolu heç vaxt bu qədər həlledici olmayıb - mətbuat təkcə hadisələrin əks etdiricisi kimi deyil, həm də strateji inkişafın mühüm hərəkətverici qüvvəsi kimi çıxış edir”. SİA-nın məlumatına görə, bunu Media İnkişafı Agentliyinin İcraçı Direktoru Əhməd İsmayılov Astanada İkinci Mərkəzi Asiya Media Forumunda çıxışında deyib. O qeyd edib ki, Azərbaycanda dövlət peşəkar medianın təkmilləşdirilməsi və gücləndirilməsi istiqamətində böyük səylər göstərir və bütün bu tədbirlər Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2021-ci ilin yanvar ayında imzalanmış Fərmanın məntiqi nəticəsi və sistemli şəkildə həyata keçirilməsi kimi qəbul edilir:

”Ölkələr arasında media sahəsində əməkdaşlıq media sektorunun inkişafının əhəmiyyətli dərəcədə artıra bilər. İnformasiya məkanının möhkəmləndirilməsi hər hansı ölkənin təkbaşına həll edə biləcəyi vəzifə deyil. Qlobal çağırışlar kollektiv fəaliyyət tələb edir. Media diplomatiyası sərhədlərarası əməkdaşlıq, birgə araşdırmalar və mədəni mübadilələr vasitəsilə həmrəyliyi təşviq edə bilər”.

Ə.İsmaylov vurğulayıb ki, bölgə media forumları, birgə layihələr, sərhədlərarası təlim proqramları və regional xəbər agentliklərinin gücləndirilməsinə yönəlmiş təşəbbüslər birlik və ortaq məqsəd hissini formalaşdıra bilər. ”Bu amil haqqında danışarkən vurğulamalıyıq ki, hazırda iştirak etdiyimiz tədbir Mərkəzi Asiyada media əməkdaşlığının inkişafı istiqamətində atılan səmərəli tədbirlərdən biridir. Biz həmçinin Birinci Mərkəzi Asiya Media Forumunun - Asiya qitəsinin digər hissələri ilə qarşılıqlı əlaqələrin qurulması üçün unikal platformanın - dəyərli müzakirələrə töhfə verdiyini yaxşı xatırlayırıq”.

Agentlik rəhbəri xatırladıb ki, medianın gücü ictimai rəyi formalaşdırmaq, dürüstlüklə məlumatlandırmaq, dialoq və mədəni mübadiləni təşviq etmək və insanları ümumi məqsəd üçün bir araya gətirmək qabiliyyətindədir: ”Biz birlikdə Mərkəzi Asiya və ümumilikdə bütün dünyanın gələcəyi üçün medianın potensialını tam dəyərləndirə və ondan istifadə edə bilərik”.

# “Bu addımlara son qoymağı Fransadan tələb edirik”

*XİN Fransa rəsmilərinin Azərbaycan əleyhinə iddialarına cavab verib*

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Fransa rəsmilərinin ölkə əleyhinə iddialarına cavab verib. Nazirlikdən SİA-ya verilən məlumata görə, o, Rəsmi Bakının Fransanın Avropa və xarici işlər naziri Jan-Noel Baronun Fransanın Azərbaycandakı səfirinin də istinad etdiyi iddialarını qətiyyətlə rədd etdiyini və pislədiyini bildirib: ”Fransanın siyasətindəki ikili yanaşma - sülh niyyətini bəyan edərkən münaqişəyə sürükləyən davranışlar - narahatlıq doğuran uyğunsuzluğu nümayiş etdirir. Belə ikiüzlü siyasət regionda davamlı sülh perspektivlərinə mane olur”. A.Hacızadə deyib ki, Fransanın Ermənistanı öldürücü silahlarla təmin etməsi, onun davamlı anti-Azərbaycan mövqeyi ilə yanaşı, sülh prosesinə xələl gətirir və bu, xarici işlər naziri Jan-Noel Baronun regional gərginliklə bağlı açıq şəkildə narahatlığını ifadə etməsi ilə tamamilə ziddiyyət təşkil edir: ”Bundan əlavə, sülh müqaviləsi layihəsi üzərində işin yekunlaşdırılması mühüm hadisə olsa da, Fransa tərəfi yaxşı başa düşür ki, sülh sazişinin imzalanması və davamlı sabitlik digər məsələlərlə yanaşı, əsas problemlərin, xüsusilə də Ermənistanın Konstitusiyasındakı ərazi iddialarının aradan qaldırılmasını, habelə Minsk Qrupunun və ATƏT-in digər əlaqəli strukturlarının rəsmi şəkildə ləğvini tələb edir”.



XİN sözçüsü vurğulayıb ki, bəşəriyyətə qarşı cinayətlərdə təqsirləndirilən şəxslərin məhkəmə proseslərinə maneçilik törədilməsi ölkənin suverenliyinə müdaxilə olmaqla yanaşı, dəhşətli qəddarlıqlara görə məsuliyyətin müəyyən edilməsi prosesini sarsıdır. Fransanın bu cür müdaxiləsi cinayətkarları qorumaqla, cəzasızlığın davamıma xidmət edir: ”Fransa regional işlərimizə qarışmaq əvəzinə, təkcə Azərbaycan deyil, müxtəlif dövlətlər tərəfindən böyük tənqidlərə məruz qalan, xüsusən də dənizaşırı ərazilərində və Afrikada həyata keçirdiyi neokolonial siyasətindən əl çəkməlidir”. A.Hacızadə həmçinin qeyd edib ki, fransız neokolonializmi yerli əhalini və resurslarını istismar etməklə bərabər, həmişə fransız maraqlarını həmin dövlətlərin rifahından üstün tutub, habelə uzunmüddətli qeyri-sabitlik və etnik gərginlik yaradıb: ”Heç kimə sirr deyil ki, Fransanın xarici siyasəti onun qondarma ”sivilizasiya missiyası”nın mənəvi cəhətdən iflasa uğradığını nümayiş etdirir. Sülhə xidmət etməyən və regionda sabitliyə xələl gətirən addımlara son qoymağı Fransadan tələb edirik”.

Xatırladaq ki, Fransanın Avropa və xarici işlər naziri Jan-Noel Baro aprelin 14-də Avropa İttifaqı ölkələrinin xarici işlər nazirlərinin Lüksemburqda keçirilən iclası çərçivəsində çıxış edərkən regional gərginlik, sülh prosesi və hazırda Azərbaycanda mühakimə olunan ermənilərlə bağlı bəzi anti-Azərbaycan iddiaları səsləndirib.

# ”Azərbaycan öz imkanlarını bütün dünya birliyində olan məmləkətlərə təklif və təqdim edir”



“Müasir dönəmdə biz görürük ki, bəzi qüvvələr zorla və qeyri-ənənəvi üsullarla çalışırlar qlobalizasiyanı həyata keçirsinlər. Bu cərəyanı öz adlarına yazırlar ki, guya bunlar hamıdan uzaq görəndilər və qloballaşmanın da açarı bunların əlindədir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib.

Onun sözlərinə görə, bu qloballaşma isə çox səhv yanaşmadır. Onsuz da qloballaşma onların istəyi olsa və ya olmasa belə bütün dünyada gedir. Ən uzaqda belə bir-birindən məmləkətlərin yaxşı və münbit əlaqələri olur və onlar çox harmonik şəkildə iqtisadi, ticari münasibətlərini gücləndirirlər. Yəni bunun özü qloballaşmanın bir göstəricisidir: ”Digər bir tərəfdən isə dəhlizlərin maneəsiz fəaliyyəti də qlobal iqtisadiyyatın inkişafına qulluq edən cərəyandır. Bunu heç bir dövlət, heç bir qüvvə inhisarına götürə bilməz. Amma biz görürük ki, Qərb ölkələri demək olar ki, bütövlüklə bu məsələni çalışır öz inhisarına götürsün və bütün prosesləri də öz nəzarətində saxlasın. Bu isə yolverilməz məsələdir. Ona görə də ölkələrin suveren işlərinə qarışırlar. Digər tərəfdən qloballaşmanın yolunu da münaqişəli vəziyyətlərin yaradılması ilə əlaqələndirirlər. Bu isə ümumiyyətlə yolverilməz bir məsələdir. Çünki münaqişəli vəziyyətlər bütün dünya birliyini qlobal fəlakətə yaxınlaşdırır. Ona görə də Azərbaycan və Çin Xalq Respublikası ikitərəfli münasibətlərini inkişaf etdirərək göstərirlər ki, onlar çox sağlam durumda bu məsələləri həm qavrayırlar, həm qarşılayırlar, həm də münasib paylar vermiş olurlar. O ki qaldı bizim aramızdakı məsafələrə, bununla bağlı onu deyə bilərəm ki, həqiqətən də Çin və bizim ölkəmiz bir-birindən coğrafi baxımdan bir qədər uzaqdayıq. Amma bu bir maneə deyil. Hər iki ölkə arasında münasibətlər metodik şəkildə inkişaf etdirilsin. Birincisi, məsafələrlə bağlı bizi birləşdirən komunikasiyalar var. Bu kommunikasiyalarında şaxələnməsi çox vacibdir. Ona görə də Azərbaycan bu günləri Zəngəzur dəhlizini gündəmə gətirməklə bir daha göstərir ki, ölkənin siyasi dairələrinə, iqtisadi birliklərinin qayəsi diversifikasiyanı təmin etməkdir. Çünki bəzi hallarda biz görürük ki, müharibələr, münaqişələr ucbatından bəzi yollar bağlanır. Buna misal olar deyə bilərik ki, şimal dəhlizi Rusiya-Ukrayna müharibəsinə görə, artıq demək olar ki, qapanıb. Əgər o qapanıbsa, deməli, bunun alternativləri olmalıdır. Orta dəhliz olmalıdır, cənub dəhlizi olmalıdır. Bəli, cənubda da problemlər var. Çünki Amerikanın Fars körfəzində mövcudluğu bir qədər problemli vəziyyət yaradır. Husilər onları hədələyirlər, sonra atışmalar olur və başqa hadisələr olur. Bu zaman artıq Orta Dəhliz qalır. Orta Dəhliz Azərbaycan-Ermənistan adlı qonşu ölkənin işğalçı siyasətinə son qoyaraq demək olar ki, bu istiqamətdə yaşıl işığı yandırıb. Ona görə də Orta Dəhlizdə Çinin marağının olduğunu biz görürük. Bir ya da iki il əvvəl Səmərqənddə ”Şanxay Əməkdaşlıq Təşkilatının” zirvə görüşü keçiriləndə Azərbaycan rəhbəri cənab Prezident İlham Əliyevlə Çin Xalq Respublikasının sədri Si Cinpinlə danışıqları oldu. Orada çox vacib bir sənədə imzalar da atıldı. Söhbət iki ölkə arasındakı stratejik tərəfdaşlıq inkişafından gedirdi. Bax, bu nəticəyə gəldik ki, biz bu ölkə üçün lazımıq və bizim kimi bir tərəfdaşa onlar ehtiyac duyurlar. Əlbəttə ki, bu proseslərdə Azərbaycan heç bir ölkə üçün problem və təhlükə yaratmır. Azərbaycan öz imkanlarını bütün qonşulara, bütün dünya birliyində olan məmləkətlərə təklif və təqdim edir. Bununla da Azərbaycan bütün dünyaya göstərir ki, sağlam inteqrasiyanın tərəfdarlarıyıq. Belə olmasa əlbəttə ki, dünya birliyi səksəkə ilə qarşılaşacaq, dünya birliyi böyük sıxıntılar yaşayacaq. Bu baxımdan həm Azərbaycanın mövqeyi, həm də Çinin mövqeyi hamısı sağlam mövqelərdir və mən düşünürəm ki, Azərbaycanla Çin uzun illər ikitərəfli əməkdaşlıqlarını davam etdirəcəklər”.



**Ziya Hikmətoğlu**




# “Azərbaycan dövləti bu yükü öz büdcəsi hesabına daşıyır”

“Qayıdışla bağlı aparılan işlər son dərəcə vacib və strateji əhəmiyyət daşıyır. Doğrudur, Qarabağ bölgəsində 900-dən çox şəhər və kəndin işğal dövründə dağıdılması və onların yenidən qurulmasının yalnız Azərbaycan dövlətinin üzərinə düşməsi müəyyən çətinliklər yaradır. Əslində, bu bölgəni 30 il ərzində işğal edən, hər cür hüququmuzu və imkanlarımızı mənimsəyən Ermənistanın məsuliyyətə cəlb olunması, həmçinin bölgənin bərpasına maddi və hüquqi cəhətdən töhfə verməsi olduqca ədalətli olardı”. Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas, siyasətçi Əli Mustafa deyib.

Onun sözlərinə görə, Ermənistan tərəfindən Azərbaycana vurulan yüz milyardlarla manatlıq zərərin kompensasiyası məsələsi, həmçinin bu vəsaitin bərpa işlərinə yönəldilməsi olduqca mühüm məsələdir: ”Əgər bu reallaşsaydı, proses daha sürətli və səmərəli gedə bilərdi. Lakin mövcud durumda Azərbaycan dövləti bu yükü öz büdcəsi hesabına daşıyır və bunu uğurla həyata keçirir ki, bu da olduqca təqdirəlayiq haldır. Qarabağa qayıdan hər bir vətəndaşımız orada özünə və dövlətinə olan güvəni daha da artırır. Bu, eyni zamanda düşmənə də bir mesajdır: torpağın həqiqi sahibləri artıq öz yurduna dönüb və burada möhkəmlənir. Bu reallıq düşməni həm psixoloji, həm də siyasi baxımdan geri çəkilməyə məcbur edir. Çünki bu torpaqlarda artıq erməni faşizminin ayaq yeri yoxdur”.

# Niderland idarəolunmaz quruluşa çevrilir

Avropanın az qala mərkəzində baş verən Rusiya-Ukrayna müharibəsi region ölkələrində ciddi qorxu yaradıb. Pribaltika respublikaları, eləcədə Norveç, Almaniya, Fransa, Belçika, Polşa, Niderland, Finlandiya, İsveç və İslandiya kimi dövlətlər dağıdıcı raketlərin onların da şəhər və kəndlərini dağıdacağı, on minlərlə insanın həyatını itirə biləcəyi barədə həyəcan dolu bəyanatlar səsləndirir, dünya birliyinə kömək üçün müraciətlər ünvanlayırlar. Hətta bəzi ölkələr, xüsusilə də, Polşa, Niderland və Norveç yaxın vaxtlarda Rusiyanın ölkələrinin enerji infastrukturunu raketlərlə dağıdacağı barədə məlumatlar səsləndirirlər. Narahatlığın geniş miqyas almasının nəticəsi olaraq bir qədər əvvəl Avropa ölkələrinin 10-a yaxın təhlükəsizlik xidmətlərinin rəhbərləri bir araya gələrək, Avropanın neft-qaz sənayesinin, kəmərlərinin Rusiyanın hücumundan qorunması yollarını müzakirə ediblər. Norveçin təhlükəsizlik xidmətinin rəhbəri ölkəsinin enerji obyektlərinin Rusiya Federasiyası tərəfindən dağıdılması ilə bağlı hərbi plan hazırlandığını söyləyib. Həyəcanlı şəkildə bildirib ki, qabaqlayıcı tədbirlər görülməsə Avropa ən böyük enerji resurslarından məhrum oluna bilər: ”Biz təkcə Almaniyanı və ya norveçli həmkarlarımızı deyil, hamımızı maraqlandıran bir hadisə görürük. Bu, Rusiya kimi bəzi tərəfdaşlardan gələn təhlükədir, o cümlədən təkcə casusluq əməliyyatları deyil, həm də bəzi bölgələrdə təxribat riski var”.

Bu barədə ”Röyters” nəşr yaydığı məlumatda qeyd edilir və xatırladır ki, 2024-cü il aprel ayında Almaniyada iki alman-rus vətəndaşı Amerikanın hərbi hədəfləri də daxil olmaqla, təxribat hücumları hazırladıqlarına görə həbs edilib. O zaman rəsmilər bunu Ukraynaya hərbi dəstəyə ciddi zərbə vurmaq cəhdi adlandırmışdı.



## Niderland zərbədən müdafiə olunmaq imkanına malik deyil

Niderlandın rəsmiləri Rusiyanın gözlənilən hücumundan qorunmaq üçün Ukraynaya hərbi yardımların artırılmasını və kəşfiyyat məlumatlarının miqyasının genişləndirilməsini təklif edib. Bu təklif fonunda gözlənilən hal ondan ibarətdir ki, Niderland daha çox Rusiyanın hücumundan qorxur. Əgər həqiqətən də Rusiya Niderlandı hədəf seçsə, o zaman rəsmi Amsterdam cəmi iki-üç saat ərzində mövcudluğunu itirər və tarixin arxivinə göndərilər. Çünki kiçik quruluş olan Niderland Rusiyaya hər hansı formada müqavimət göstərə bilməz. Bu baxımdan Niderlandın Rusiyadan gözlənilən zərbədən narahat olması başa düşüləndir. Hansısa Avropa ölkəsinin Niderlanda kömək etməsi, gözlənilən Rusiya hücumundan qoruması mümkünsüzdür. Ən azı ona görə ki, digər Avropa ölkələri də Niderland kimi hərbi və siyasi cəhətdən zəif dövlətlərdir. Ona görə də, Niderland təşviş keçirməsi, az qala müxtəlif ölkələrə siyasi cəhətdən yalvarışla kömək istəməsi anlaşılandır. Başa düşülməyən məsələ ondan ibarətdir ki, bu üzdəniraq Niderland adlı quruluş Azərbaycana qarşı boşboğazlılarla çıxışlar edir. Dəfələrlə 30 illik erməni işğalına son qoyduğumuza görə, bizləri ittiham edən bəyanatlar səsləndirib, parlament səviyyəsində qətnamələr qəbul edib. 2024-cü ildə oktyabrın 10-da Niderland Krallığının parlamentinin Nümayəndələr Palatası Azərbaycan əleyhinə iki absurd qətnamə qəbul edib. Reallıqdan uzaq, faktların saxtalaşdırılması, şər və böhtandan ibarət olan qətnamədə Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və adətlərini pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərini ”erməni hərbi əsirləri” kimi qələmə verilərək onların azadlığa buraxılmasını tələb edilir. Digər qətnamədə isə guya Qarabağda erməni mədəni irsinin talan edilməsi barədə saxta ittihamlar irəli sürülüb. Birincisi, ermənilər Azərbaycana gəlmədilər, ikincisi isə, gəlmə ermənilərin necə mədəni irisi və mədəniyyəti ola bilər? Bunu Norveç parlamentinin deputatları bilməmiş deyillər. Sadəcə, erməni lobbisinin təsiri altında olduqlarından reallıqları dilə gətirməyə çəkinirlər. Lakin Azərbaycan Xarici İşlər Nazirliyi Niderland parlamentinin Nümayəndələr Palatasının terrorçuları himayə etməyə çalışan qətnaməsini sərt şəkildə tənqid edib. Azərbaycan Xarici İşlər Nazirliyi yaydığı bəyanatda Niderlandın xarici işlər naziri Kaspar Veldkampın çıxışı zamanı bu qərəzli qətnamələrə dəstək ifadə etməsi, Azərbaycan tərəfindən həbs edilmiş keçmiş separatçı rejimin nümayəndələrinin və terrorçuların ”hərbi əsir” kimi qələmə verilərək azad edilməsinə dair çağırışlar qəbuledilməz adlandırılıb. Qeyd olunub ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və torpaqlarımızın işğalı zamanı 1954-cü il Haaqa konvensiyasına zidd olaraq mədəni və dini irsimizin dağıdılmasına, təhqir edilməsinə, mənimsənilməsinə, mədəni sərvətlərin ölkəmizdən qeyri-qanuni çıxarılması kimi hərbi cinayətlərə etinasız yanaşan Niderland tərəfinin indi ermənilərin saxta təbliğatına istinadən ölkəmizin guya erməni abidələrini hədəf aldığını bildirməyə heç bir mənəvi haqqı yoxdur. Eyni zamanda, qətnamələrdə yer alan və xarici işlər nazirinin səsləndirdiyi fikirlərdə Azərbaycanın ötən ilin sentyabr ayında həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərinin məram və məqsədlərinin təhrif olunması ölkəmizə qarşı ikili standartların bariz nümunəsidir. XİN Niderland tərəfini bölgədə sülhə qarşı olan və Azərbaycan-Niderland münasibətlərində gərginlik yaradan birtərəfli mövqedən əl çəkməyə çağırıb.

Milli Məclis də sözügedən qətnamələri qərəzli siyasi aktlar kimi qətiyyətlə rədd edib və pisləyib, Nümayəndələr Palatasını, eləcə də bu ölkənin rəhbər vəzifəli şəxslərini Cənubi Qafqaz bölgəsində sülh və sabitlik yaradılması səylərinə mane olan hərəkətlərə son qoymağa çağırıb: ”Biz Niderland Krallığı da daxil olmaqla, bütün dövlətlərlə konstruktiv dialoqu və əməkdaşlığı dəstəkləyirik, lakin bu cür dialoq və əməkdaşlıq qarşılıqlı hörmətə və faktların vicdanlı etirafına əsaslanmalıdır”.

## Niderland Fransanın təsirinə düşməklə faciəsini bir qədər də dərinləşdirir

Araşdırmalar əsasında məlum olur ki, Niderland kimi xəritədə nöqtə kimi görünən quruluş Azərbaycana qarşı qərəzli mövqe tutmasının arxasında ermənilərə bacılıq edən Fransanın sifarişləri dayanır. Yəni rəsmi Amestdam Fransanın göstərişləri ilə Azərbaycana qarşı reallıqdan uzaq, ədalətsiz iddialarla çıxış edib. Halbuki, Azərbaycan daim işğalçılığa, insan hüquq və azadlıqlarının pozulmasına qarşı mübarizə aparıb və bunu əməli fəaliyyəti ilə sübut edib. 30 illik erməni işğalına son qoyub, torpaqlarını azad etməsi Azərbaycanın haqqı idi. Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və adətlərini pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin ədalət məhkəməsi qarşısına çıxarılmasında beynəlxalq qanunlara əsaslanır. Azərbaycan Fransa, Niderland kimi müstəmləkə siyasəti yeritməyib. Beynəlxalq birlik tərəfindən rəsmən tanınan ərazilərində silahlı hərbi birləşmələri ləğv edib, suverenliyni bərpa edib. Niderland o vəhşi toplumlardandır ki, Bonaire, Saint Maarten, Aruba, Curacao, Saint Eustatius və Saba-da məqsədyönlü müstəmləkə siyasəti həyata keçirib. Müstəmləkə altında əzilən xalqlar azadlıq mübarizəsinə qalxan zaman Niderlandın muzdullardan ibarət ordu birləşmələri tərəfindən döyülür, təhqir edilir, zindanlara atılaraq orada çürüdülür. Bu vəhşilik dəfələrlə beynəlxalq təşkilatların hesabatlarında, müstəqil media mənsubları tərəfindən əks olunub. Lakin Niderlandın barbar xislətli vəhşi toplumu beynəlxalq hüquqa qarşı çıxır, tərəqqipərvər xalqların çağırışlarını qulaqardına vurur. Bakı Təşəbbüs Qrupu Niderlandın Boner, Sen-Martin, Aruba, Kurasao, Sen Eustatius və Sabada törətdiyi qətliamlar, zorakılıqlarla bağlı dünya birliyinə müraciət ünvanlayıb. Təşəbbüs Qrupunun bəyanatında qeyd olunur ki, öz müstəmləkəçilik siyasətini Boner, Sen-Martin, Aruba, Kurasao, Sen Eustatius və Sabada davam etdirən Niderland bu ərazilərdə məqsədyönlü assimilyasiya siyasəti aparır: ”Niderland yerli əhalini adalardan qovaraq onları niderlandlılarla əvəzləyir, yerli əhalinin nümayəndələrinə ikinci dərəcəli ”vətəndaşlar” kimi rəftar edir, müstəqillik tərəfdarlarını təqib edir və həbs edir, yerli xalqlara öz ana dillərində təhsil almağa və danışmağa qadağan edir, yerli xalqların öz mədəniyyətini qoruyub-saxlamasına lazımi şərait yaratmır və digər çoxsaylı cinayətlər törədir.Yuxarıda qeyd olunanları nəzərə alaraq, Bakı Təşəbbüs Qrupu Niderland parlamentini bu ölkənin Boner, Sen-Martin, Aruba, Kurasao, Sen Eustatius və Saba adalarında törətdiyi cinayətlərə son qoymağa dair Niderland hökumətinə çağırış etməyə dəvət edirik. Bu xüsusda, törədilmiş və bu gün də davam edən cinayətlərin müəlliflərin məsuliyyətə cəlb olunması üçün müvafiq Araşdırma Komissiyasının yaradılmasına çağırış edirik”.

2025-ci il aprel 14-də BMT-nin Nyu-Yorkdakı Baş qərargahında Afrika əsilli şəxslərin Daimi Forumunun 4-cü sessiyasında Fransanın və Niderlandın müstəmləkə siyasəti şərt şəkildə tənqid olunub. Konfransda qeyd olunub ki, Bakı Təşəbbüs Qrupu (BTQ) ilə Daimi Forum arasında qurulmuş əməkdaşlıq nəticəsində Fransa və Niderlandın müstəmləkəçiliyi altında olan Qvadelup, Martinik, Kanaki (Yeni Kaledoniya), Sint Maarten, Reunyon, Bonayre, Aruba, Maohi Nui (Fransız Polineziyası), Fransız Qvianası nümayəndələrinin tədbirdə iştirakı təmin edilmişdir. Tədbirdə çıxış edən BTQ-nin icraçı direktoru Abbas Abbasov, rəhbərlik etdiyi təşkilatın dekolonizasiya istiqamətində gördüyü işlər haqqında ətraflı məlumat verərək, Fransa və Niderlandın əsarəti altında olan ərazilərin bu gün də kolonial idarəetmədən əziyyət çəkdiyini təəssüflə xatırlatmışdır.

A.Abbasov Qvadelup, Martinik, Kanaki (Yeni Kaledoniya), Sint Maarten, Reunyon, Bonayre, Aruba, Maohi Nui (Fransız Polineziyası), Fransız Qvianasının üzləşdiyi problemlərin daha təfsilatlı müzakirəsi üçün Daimi Forumun dəstəyi ilə BTQ tərəfindən aprelin 15-də ”Dekolonizasiya: Sakit inqilab” konfransın təşkil ediləcəyini və bu xüsusda iştirakçı dövlətləri sözügedən tədbirə dəvət etmişdir.

BTQ-nin xətti ilə Forumda iştirak edən Qvadelup, Sint Maarten, Reunyon, Martinik, Fransız Qvianasından olan nümayəndələr də öz növbələrində çıxışlarında Fransa və Niderlandın kolonial siyasətini qınamış, ölkələrinin tezliklə müstəqil olması üçün səylərin birləşdirilməsinin vacibliyini vurğulamışlar.Tədbirdə həmçinin BTQ-nin sifarişi ilə BMT-nin tanınmış eksperti, ABŞ vətəndaşı Karlayl Korbin tərəfindən hazırlanmış ”Fransız kolonializminin təkamülü: Siyasi və konstitusional tədqiqat” adlı hesabat Sessiyanın iştirakçılarına təqdim olunmuşdur.

Əminliklə demək olar ki, dünya birliyinin səyi, müstəmləkə altında əzilən xalqların fədakarlığı nəticəsində Niderlanın və Fransanın müstəmləkə siyasətlərinə son qoyulacaq. Nəhayət, zindan həyatı yaşayan xalqlar öz azadlıqlarına qovuşacaqlar.

**İLHAM ƏLİYEV**



# “Azərbaycan və Çin çox önəmli tərəfdaşlardır”

**“Azərbaycan - Çin əlaqələri dərin tarixə malikdir. Hələ 2500 il əvvəl tarixi ”İpək yolu” vasitəsilə xalqlarımız arasında formalaşan mədəni və ticari əlaqələr sonrakı dövrdə də mütəmadi olaraq müxtəlif sahələrdə inkişaf edib və möhkəmlənib. Bu gün iki ölkə arasındakı münasibətlər qarşılıqlı faydalılıq və etimad prinsiplərinə əsaslanır”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov deyib.**



O bildirib ki, hər iki ölkə bir-biri üçün olduqca önəmli tərəfdaşdır: ”Çin Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdəndir, belə ki, ÇXR Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 27-də tanıyıb. Çox keçmədən isə, yəni, 2 aprel 1992-ci ildə iki ölkə arasında diplomatik əlaqələr qurulub. Keçən dövr ərzində Bakı - Pekin münasibətləri tarixi ənənə və müasir geosiyasi reallıqlar fonunda dinamik şəkildə inkişaf edib. Bu gün Azərbaycan Çinlə demək olar ki, bütün istiqamətlərdə sıx əlaqələrə malikdir.

Azərbaycan Çin üçün, Çin də Azərbaycan üçün çox önəmli tərəfdaşlardır. Çin hər zaman Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib, Azərbaycan isə öz növbəsində Tayvanla bağlı məsələlərdə Çinin prinsipial mövqeyini müdafiə edərək ”Vahid Çin” prinsipinə dəstəyini ifadə edib. İki ölkə arasında münasibətlərin inkişafında ən önəmli məqam 2022-ci ilin sentyabrında Azərbaycan-Çin münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi üçün imzalanmış Birgə Bəyannamədir. Azərbaycan Prezidenti və Çin Xalq Respublikasının Sədri Si Cinpin arasında Şanxay Əməkdaşlıq Təşkilatının sammiti çərçivəsində keçirilən görüşdə ikitərəfli münasibətlərin geniş spektri ilə bağlı əsas istiqamətlər müəyyən edilib. Həmin görüşdə ölkələrimiz arasında münasibətlərin yeni mərhələyə keçidi təmin olundu və bu münasibətlərin qarşılıqlı hörmət, bərabərlik, qarşılıqlı dəstək prinsiplərinə əsaslandığı bir daha qeyd olunmuş oldu. Bundan sonra Azərbaycan - Çin münasibətləri daha da inkişaf etməyə başladı. Təsadüfi deyil ki, bu gün Azərbaycan Çinin Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır və ticarət dövriyyəsi müsbət dinamika nümayiş etdirir. Təkcə keçən il ərzində iki ölkə arasında xarici ticarət dövriyyəsi 20,7% artaraq 3.7 milyard ABŞ dolları təşkil edib.

Azərbaycanla Çin arasında siyasi və iqtisadi əlaqələrin bu cür ardıcıl inkişafının əsasında formalaşan əməkdaşlıq münasibətləri iki ölkənin əsas və uzunmüddətli maraqlarına cavab verməklə yanaşı, həm də sülh, sabitlik, sosial-iqtisadi tərəqqiyə xidmət edir.

Ölkəmizin ”Bir kəmər, bir yol” layihəsinə verdiyi önəm də Azərbaycan ilə Çin arasındakı münasibətlərdə xüsusi yer tutur. Hər kəs qəbul edir ki, Azərbaycanın təşəbbüsləri ilə son illər həyata keçirilən irimiqyaslı infrastruktur layihələri sayəsində Azərbaycan mühüm beynəlxalq nəqliyyat və logistika mərkəzinə çevrilib. Şərq-Qərb və Şimal-Cənub Nəqliyyat dəhlizləri kimi regional kommunikasiya layihələrinin işə düşməsinə mühüm töhfələr verən Azərbaycanın rolu getdikcə artmaqdadır. Bu gün Azərbaycan dünyanın əsas yük axını istiqaməti olan Çin-Avropa-Çin arasında əsas körpüyə çevrilib. Dünyada və regionda baş verən geosiyasi hadisələrlə əlaqədar Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi - Orta Dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən keçməklə Avropa ilə Asiyanı birləşdirən ən qısa və rahat marşrutdur. Bu amil Orta Dəhlizin önəmini artırmaqla yanaşı, geniş bir regionda yerləşən ölkələr arasında əməkdaşlığın daha da inkişafı baxımından unikal imkanlar təqdim edir”.

Onun sözlərinə görə, bu ilin yanvarında Çinin CGTM telekanalına müsahibəsində, eləcə də bu günlərdə ADA universitetinin təşkilatçılığı ilə keçirilən ”Yeni dünya nizamına doğru” beynəlxalq forumdakı çıxışında da ölkə başçısı Çinlə müxtəlif sahələrdə, xüsusən də yaşıl enerji sahəsində strateji tərəfdaşlığın perspektivlərinə toxunaraq Çin şirkətləri ilə birbaşa yaşıl enerji sahəsində Azərbaycan yatırımların qoyulması üçün aktiv danışıqların aparıldığını bildirdi: ”Düşünürəm ki, Prezidentin Çinə planlaşdırılan səfərində həm bu, həm də digər sahələrlə bağlı iki ölkə arasında yeni layihələr haqqında razılaşmalara şahidlik edəcəyik. Yeri gəlmişkən Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, ÇKP MK Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lyu Cyançao da bu günlərdə verdiyi açıqlamasında Azərbaycan və Çin arasında münasibətlərin dərinləşməsi üçün böyük potensial olduğunu və Prezidentin Çinə səfəri çərçivəsində daha konkret layihələrlə bağlı qərarların qəbul ediləcəyini bildirib”.

***Söylü Ağazadə***

# “Dövlətlərarası münasibətlər yüksək səviyyədədir”

“Məlum olduğu kimi Azərbaycan və Gürcüstan bu gün Cənubi Qafqazın 2 suveren, müstəqil siyasət yürüdən ölkəsi olaraq həm də dərin əlaqələrə, köklərə, qardaşlıq bağlarına malikdirlər. Ümumiyyətlə, Azərbaycan-Gürcüstan dostluğunun təməlində xalqların əsrlər boyu formalaşmış dostluq və qardaşlıq əlaqələri dayanır. Bu gün isə həmin əlaqələrə söykənən iki dövlətin əməkdaşlığı yeni mərhələyə qədəm qoyub”. Bunu SİA-ya açıqlamasında politoloq Nadir Azəri deyib.

Onun sözlərinə görə, Gürcüstan Prezidenti Mixeil Kavelaşvilinin prezident vəzifəsinə seçiləndən sonra ilk rəsmi səfərini Azərbaycana etməsi də iki dövlət arasındakı münasibətlərin dərinliyinə və səmimiliyinə işarə edir: ”Səfər çərçəivəsində iki dövlət başçısının mətbuata bəyanatlarında da qeyd edildiyi kimi dövlətlərarası münasibətlər də yüksək səviyyədədir. Gürcüstan və Azərbaycan birgə bir çox önəmli layihələri icra ediblər və bu layihələr həm ölkələrimiz üçün, xalqlarımız üçün, həm də daha geniş coğrafiya üçün böyük önəm daşıyır. Təbii olaraq siyasi əlaqələr inkişaf edir”.

Nadir Azəri bildirib ki, Gürcüstan və Azərbaycan Cənubi Qafqazda sülhün və sabitliyin olması üçün hər zaman səylər göstərib. O qeyd edib ki, Gürcüstan və Azərbaycan bir məsələdə də həmrəylik nümayiş etdirir: ”Söhbət müstəqil, milli maraqlara əsaslana siyasət yürütmək, xarici imperialist güclərin Cənubi Qafqazı öz təsir dairəsinə çevirməsinə yol verməməkdən gedir. Yeri gəlmişkən, Gürcüstan Prezidenti Mixeil Kavelaşvil Bakıdakı bəynatında bu məqama xüsusi olaraq toxunub. O, bəyan edib ki, ”çağırışlar və təhlükələrlə dolu bugünkü qloballaşma dövrü bir çox fundamental dəyərləri təhdid edir. Ona görə də biz bu prinsipləri qorumaq üçün xüsusi diqqət və səy göstərməliyik. Gürcü və Azərbaycan xalqları millətlərimiz üçün həyati əhəmiyyət kəsb edən dəyərlərin qorunması uğrunda mübarizədə bir yerdədir və bundan sonra da birlikdə olacaqlar”. Əslində, bu fikirləri Gürcüstan-Azərbaycan əməkdaşlığının yeni dönəmi üçün bir çağırış kimi də dəyərləndirmək olar”.



”Ümumilikdə, prezidentlərin mətbuata bəyanatlarında da bəyan edildiyi kimi zamanın sınağından çıxmış yüksəksəviyyəli strateji və mehriban qonşuluq münasibətləri daha da möhkəmlənəcək, Gürcüstanın və Azərbaycanın milli maraqlarının həyata keçirilməsində yeni müstəviyə keçəcək” deyə, N.Azəri əlavə edib.

***Ayşən Vəli***

# Uşaq doğumu kəskin azalıb, uşaqpulu bərpa olunmalıdır




***Milli Məclisin deputatı Əli Məsimli 3 uşaqlı ailə modeli ilə bağlı təkliflə çıxış edib: "Pensiya islahatlarında nəzərə alınması vacib olan məsələlərdən biri də budur ki, Azərbaycanda yeni doğulan uşaqların sayı əhəmiyyətli dərəcədə azalıb və ailə modeli dəyişib. Ailələrin əksəriyyəti 2 və 1 uşaqdan ibarətdir. 5 və daha çox uşağı olan ailələr isə azlıq təşkil edir. Ona görə də, ölkəmizdə ailə modeli dəyişdirilməli və 3 uşaqlı ailə modelinə keçmək lazımdır. Bu kontekstdə çoxuşaqlı ailə dedikdə bu, 3 və daha çox uşağı olan ailələrə şamil edilməli, pensiya yaşının azaldılması güzəştləri tətbiq edildikdə 3 uşaqlı ailələr başlanğıc kimi götürülməlidir.***

Deputat qeyd edib ki, ölkədə uşaqların sayının azalması "uşaqpulu" məsələsini getdikcə daha da aktuallaşdıracaq: "Uşaqpulu" problemi həll olunana qədər isə bu cür aralıq mahiyyət kəsb edən təkliflər aktual olacaq. Bizim bu təklifi də daha çox həmin "uşaqpulu" məsələsinə mərhələli şəkildə keçilməsi kontekstindən qiymətləndirmək lazımdır. Azərbaycanda uşaqların sayı və təbii artım sürətlə aşağı düşür. Ölkəmizdə 2015-ci ildə 166 min, 2020-də 125 min, 2024-cü ildə isə 102 min uşaq doğulub. Deməli 2024-cü ildə ölkəmizdə yeni doğulan uşaqların sayı 2020-ci illə müqayidədə 33 faiz, 2015-ci illə müqayisədə isə 63 faiz aşağı düşüb. Uşqaların sayının bu cür sürətlə azalması ölkəmizin gələcəyi üçün çox düşündürücü məsələdir. Hazırda Azərbaycanda orta statistik ailə 2 valideyn və 2 uşaq olmaqla 4 nəfərdən ibarətdir və çoxluq təşkil edir. 2 valideyn və 1 uşaq olan 3 nəfərdən ibarət ailələr ikinci, 2 valideyn, 3 uşaq olmaqla 5 nəfərdən ibarət ailələr isə üçüncü yeri tutur.

Son vaxtlar boşanma halları artdığından 1 valideyn 1 və ya 2 uşaqdan ibarət ailələr də artır. Biruşaqlı ailələrin sayının artması ölkədə əhalinin sayınının artım tempinin azalmasına ciddi təsir göstərən amillərdən biridir və orta perspektivdə onun bu yöndəki təsiri daha da güclənəcək. Hər ailədə 2 uşağın olması da ölkədə əhalini artıran model deyil. Hazırda ölkəmizdə ailələrin əksəriyyəti 2 və 1 uşaqlı ailələrdən ibarətdir. 5 və daha çox uşağı olan ailələr isə azlıq təşkil etdiyindən və daha çox uşağın timsalında "çoxuşaqlı ailə" modeli arxa plana keçməkdədir. Təsirli tədbirlər görülməsə, 1 və 2 uşaqlı ailələrin sayı daha da artacaq, 3 uşaqlı ailələrdən başlayaraq üzüyuxarı digər ailələrin sayı isə daha da azalmaqla demoqrafik vəziyyət pisləşəcək.

Ailədə uşaqların sayının azalmasına müxtəlif amillər təsir edir. Amma əhalinin xeyli hissəsinin güzəranı ilə bağlı sosial xarakterli amillər və ailə planlaması məsələsində uşaqların sayına fərdi münasibət daha çox təsir edir. Belə şəraitdə ölkənin iqtisadi inkişafının və qüdrətinin mühüm amili kimi əhalinin artımında Azərbaycan üçün daha çox xarakterik və məqbul olan müsbət dinamikanı saxlamaqdan ötrü 3 uşaqlı ailə modelinə keçmək daha məqbul variantdır.

Bu kontekstdə çoxuşaqlı ailə dedikdə bu, 5 və daha çox uşağı olan ailələrə yox, 3 və daha çox uşağı olan ailələrə şamil edilməli və pensiya yaşının azaldılmasında da hər uşaq üçün 1 il olmaqla 3 uşaqlı ailələrdən başlamalıdır. Bu addım uşaqlar üçün verilən müavinətin dairəsini xeyli genişləndirməklə çoxuşaqlı ailələrə münasibətdə mövcud olan müavinət mexanizminin əlçatanlığını da əhəmiyyətli dərəcədə artırmış olar. Bu model beynəlxalq təcrübəyə daha çox uyğundur. Uşaq sayı artdıqca, həm pensiya yaşının müvafiq surətdə azaldılması, həm də beynəlxalq praktikadan məlum olan hər uşağa görə ödənilən müavinətin məbləğinin artması Azərbaycanda çoxuşaqlılığın təşviq edilməsində daha təsirli rol oynaya bilər"(modern.az).

Deputatın bütün fikirləri reallığa əsaslanır və milli təhlükəsizliyimiz üçün həyəcan siqnalıdır. Mən də uzun illərdir daim bu təkliflərlə televiziya və mətbuatda çıxış etmişəm. Artıq doğumun kəskin azalması və 1 uşaqlı ailə modelinə keçid baş verib ki, bu son dərəcədə təhlükəli tendensiyadır. Bunun qarşışını almaq üçün hökumət təcili olaraq sosial və mənəvi dəstək proqramı həyata keçirməlidir. Hazırda bizdə 6 və daha çox uşaqlı ailələrə yardım verilir 105 manat məbləğində. Lakin ölkədə 6 uşaqlı ailələr yox dərəcəsindədir, hazırda 3-4 uşaqlı ailələrə belə nadir rast gəlinir.

3 uşaqlı ailənin artıq çoxdan çoxuşaqlı olması inkaredilməz faktdır. Sadəcə bunu rəsmiləşdirmək lazımdır. Bu həm statistikadan, həm də ətrafımızda müşahidələrimizdən də aydın görünür. Bu olduqca təhlükəli, hətta faciəvi bir tendensiyadır. Yəni bir ailədə 3-dən az uşağın olması həmin xalqın tədricən məhv olub sıradan çıxması deməkdir. Bir xalqın davam etməsi, yaşaması üçün hər ailədə minimum 3 uşağın olması şərtdir. Çünki bu uşaqların biri müxtəlif dövrlərdə müxtəlif səbəblərdən dünyasını da dəyişə bilir.

Dünyanın bütün mədəni ölkələri çoxuşaqlı ailələrin sayının çox olmasına çalışır. 1 uşaqlı ailənin necə faciə olduğunu artıq dünyada başa düşürlər. Xüsusilə də, Çində bu təcrübənin faciəvi sonluğunu gördəndən sonra çoxuşaqlı ailələrin təbliğinə başladılar.

3 uşaqlı ailə çoxuşaqlı ailə hesab olunmağa başladıqda artıq dövlətin müəyyən imtiyazlar sistemi işə düşür. Sosial müavinətlər, müxtəlif formada yardımlar və s. bunlara daxildir. Bu sistem bizdə, çox təəssüf ki, yox kimidir.

Əksər ölkələrdə aylıq uşaqpulu verilir. Qonşu Rusiya, İran, Ermənistan kimi ölkələr da bura daxildir. Hətta bəzi ölkələrdə uşaq pu-



lundan əlavə ailələrə ev, torpaq, avtomobil verilməsi qaydaları var- məsələn Rusiyada. Orada uşqpulundan əlavə çox sayda stimullaşdırıcı tədbirlər var- torpaq sahəsi ayırmaq, ev vermək, özünüməşğulluq üçün müvafiq təminatları vermək, valideynlərin əmək hüquqlarından xeyli əlavə güzəştlər və s. Bu dövlətin stimullaşdırıcı tədbirləridir. Məqsəd isə normal ailə modelinin bərqərar olmasıdır.

Bəzən bildirilir ki, bütün uşaqlara uşaqpulu verməyə dövlətin imkanı çatmır. Fikrimizcə, heç bir maliyyə problemi yoxdur, dövlətimizin maliyyə imkanları lazım olduğundan dəfələrlə çoxdur və getdikcə də artır. Buna baxmayaraq əgər bütün uşaqlara verilmirsə, onda heç olmasa çoxuşaqlı- yəni 3 və daha çox uşaqlı ailələrə uşaqpulu ödənilməlidir. Ya da ən azı müəyyən bir yaş qrupunda olan uşaqlara verilməsi mümkün ola bilər- məsələn 5 yaaşdək, 10 yaşadək və s. Məbləğin az olması da müəyyən qədər qəbuledilən olardı, bu, yenə də ailəyə dəstək olacaq.

Uşaqpulunun verilməsi belə uşaqların sayını əhəmiyyətli həddə artıracaq gücdə deyil, bu yardım sadəcə möcvud uşaqların sağlam böyüdülməsinə dəstək ola bilər. Hesab edirəm ki, ilkin mərhələdə hər uşağa ayda ən azı 100 manat olmaqla 3 və daha çox uşaqlı ailələrə yardım edilməlidir.

Əgər dövlət büdcəsində maliyyə yükü yaradacağını iddia edirlərsə, onda alternativ də təklif edə bilərik. Məsələn ünvanlım sosial yardımı ləğv edib onu uşaqpulu formasında vermək olar. Ünvanlı sosial yardım o qədər də ünvanlı deyil və burada çox sayda neqativ hallar var, bu sisteme insan müdaxiləsi çox rahatdır. Lakin uşaqpulunda bu mümkün deyil, çünki uşaqlaırn konkret sayı məlumdur və hər uşaq heç bir xüsusi sənədlər toplanılmadan bu yardımı ala biləcək. Göründüyü kimi, uşaqpulu sistemi daha şəffaf, daha rahat və daha effektivdir.

Aylıq uşaqpulunun bərpası sağlam gələcəyəmizin formalaşmasına dövlətimizin tövfəsi ola bilər. Çünki əhalinin əksəriyyəti aztəminatlı olduğundan uşaqların sağlam böyüdülməsini təmin etməkdə çətinlik çəkir. Ona görə də dövlət bu məsələdə öz sözünü deməlidir.

***Elçin Bayramlı***

# FELYETON



## Allahdan, yoxsa USM-dən?..

1990-cı illərin lap əvvəlinin dəbindən deyim: USM. O USM ki, başladı həm də hamilə qadınların dölünün cinsini göstərməyə. Elə bundan istifadə edən fürsəti qaçırmayanlar da dedilər, hə, bax, bu, ela oldu. Nəyimizə lazım 2, 3, 4 qız, həm də birbirinin ardınca. Axı bizim bir oğlan sevdamız var. Odur ki, "qoy oğlumuz olsun, necə deyərlər, şirin payımız bol olsun" deyənlərin sayı olmadı. Beləliklə, qadınlar qaldılar xəstəxana yollarında. USM "qız" dedi, qadın elə oradan aborta yollandı, ikinci dəfə də "qız" dedi, birbaşa aborta. O vaxta qədər ki, USM şirin pay verdi, oğlan dedi, ana da sevinə-sevinə evə qayıdıb qayınanasını, ərini muştuluqladı.

O vaxtlar bu üsul hələ təzə idi, hamının xoşuna gəlirdi. Ta oğlanı Allahdan istəməyə lüzum da qalmadı. Hamı USM-dən istədi. Az qala hamının oğlu oldu. Hətta biri yox, bir neçəsi. Hara baxdın oğlan, o qohumda, bu qonşuda: oğlan, oğlan, oğlan.

Bizim bu ailə, qadın, uşaq və səhiyyə məsələlərinə baxan qurumların yəqin o vaxt heç ağlına gəlmədi ki, niyə hamı oğlan doğur. Gələliydi, gəlmədi. Gəlmədi ki, gəlmədi...

Bir də baxıb nə görsək yaxşıdır? Gördük ki, ta ölkədə qızlar az-maz gözə dəyir, hər yer oğlandır. Baxdıq ki, başımıza xeyir, 2021-ci ilin statistikasına əsasən, Azərbaycanda 100 qıza 115 oğlan düşür. Əvvəl selektiv aborta görə siyahıda liderlik Çinə məxsus idi və Azərbaycan ikinci yerdə idi. Gördük ki, indi vəziyyət əksinədir. Biz Çini üstələmişik. Hətta qız-oğlan nisbətini də arxada qoymuşuq: 100-110,3 onlardadır, 100-115 bizdə.

Məlum oldu ki, BMT-nin Əhali Fondunun hesablamalarına görə Azərbaycanda doğulan uşaqlar arasında cinsə görə nisbətin ciddi şəkildə pozulması davam etsə, 2050-ci ilə qədər hər il doğulan oğlan uşaqlarının sayı qız uşaqlarının sayından 12000-15000 nəfər çox olacaq. Cəmiyyətdə kişilərin sayının bu artımla davam etməsi ölkənin acınacaqlı nəticələrlə üz-üzə qalması halına gətirib çıxara bilər. Bura gender bərabərsizliyi, zorakılıq, erkən nikah, insan alveri və kriminal səviyyənin artması aiddir.

Bismillahir-rəhmanir-rəhim, bu nə rəqəmlərdir belə? Müsəlləyə çıxaq, nə edək, Allahdan bəlkə bir az qız istəyək...

Elə bu arada Ədliyyə Nazirliyinin məlumatı yayıldı. Nazirliyin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 2024-cü ilin yanvar-iyun ayları ərzində 48702 doğulan körpə qeydə alınıb və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 10,7-dən 9,6-ya düşüb. Bunu qoyaq bir kənara, doğulan körpələr arasında oğlan uşaqlarının xüsusi çəkisi 53,2 faiz, qız uşaqlarının xüsusi çəkisi isə 46,8 faiz olub.

Budur, oğlan sayı qız sayını yenə də çox üstələyir. Bu isə o deməkdir ki, qız qəhətə çıxır. Bizdə belə bir deyim vardı: qız qızıla dönür, xəbəri yox oğlanların. İndi isə belə deyək: qız qəhətə çıxır, xəbəri yox oğlanların.

Hələ yəqin baş qarışıb təhsilə, əsgəriyə. Elə vaxt gələcək, evlənmək vaxtı çatacaq, oğlanlar baxıb görəcək ki, qız qalmayıb. Səhərdən bəri bu qədər danışmağımın da səbəbi elə budur. Ay oğlanlar, başınızı çox işəgücə qatmayın, qız məsələsini də vaxtında həll edin, yəni bir gözaltınız-zadınız olsun. Yoxsa, bir də baxacaqsınız ki, evlənməyə qız qalmayıb.

Aid qurumları bu məsələ nə qədər ki, narahat etmir, siz özünüz həll edin. Bəlkə gələcəkdə disbalans məsələsi onları da narahat edər və selektiv abortlara qadağa qoymaqla bu məsələni kökündən həll etmiş olarlar. Hələ buna da, ya qismət...

***Mətanət Məmmədova***

# "Suriya ilə Azərbaycan arasında mühüm diplomatik yenilik gözləniləndir"

"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə 4-cü Antalya Diplomatik Forumunda iştirak etmək üçün bu ölkəyə işgüzar səfər edib. Dövlət başçısı səfər çərçivəsində bir sıra görüşlər keçirib. Diqqət çəkən əsas məqamlardan biri Prezident İlham Əliyevin Antalyada Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd əş-Şara ilə görüşü olub. Prezident görüş zamanı onu Azərbaycana rəsmi səfərə dəvət edib. Dəvət minnətdarlıqla qəbul olunub". Bu sözləri SİA-ya açıqlamasında politoloq Turan Rzayev deyib. Turan Rzayev sözlərinə belə davam edib: "Əhməd əş-Şaranın keçmişi müəyyən qədər tənqidə açıq olsa da, o, hazırda Suriya Ərəb Respublikasının keçid dövrü prezidentidir. Onun Azərbaycana münasibəti müsbətdir, əməkdaşlığa marağı isə aydındır. Bu, Bakı üçün də məqbul yanaşmadır.

Bakı-Dəməşq münasibətləri nə Hafiz Əsədin, nə də Bəşər Əsədin dövründə yaxşı olmayıb. Xüsusilə Bəşər Əsədin açıq ermənipərəst siyasəti iki ölkə arasındakı münasibətləri son dərəcə gərgin vəziyyətə salmışdı. Lakin Əsəd rejimindən fərqli olaraq, Əhməd əş-Şara Bakı ilə əməkdaşlıq etməkdə maraqlıdır.

Türkiyənin müttəfiqi olan Azərbaycan ilə Ankara tərəfindən dəstəklənən Suriyanın yeni hakimiyyəti arasında körpü formalaşmaqdadır. Ankara Əhməd əş-Şaranın beynəlxalq ictimaiyyət qarşısında özünü müsbət mənada göstərməsini, yeni Suriyanın əvvəlkindən fərqli olduğunu sübut etməsini istəyir. Azərbaycan bu baxımdan əvəzsiz tərəfdaşdır.

Azərbaycan türk dünyasında, İslam aləmində və beynəlxalq ictimaiyyətdə nüfuz sahibi, sözünə etibar edilən bir dövlətdir. Rəsmi Bakı beynəlxalq münasibətlərdə hüququn aliliyinə, etibarlı əməkdaşlığa və balanslı siyasətə önəm verir. O mənada Azərbaycan-Suriya münasibətlərinin normallaşması bu ölkənin beynəlxalq imicinə də müsbət təsir göstərə bilər. Bakı ilkin mərhələdə Əhməd əş-Şara və keçid hökumətinə ehtiyatla yanaşsa da, Türkiyənin səyləri nəticəsində hazırda əməkdaşlığa maraq göstərir. Azərbaycanın Talibanla münasibətlərindəki ehtiyatlı və mərhələli yanaşmanın Suriyaya da tətbiq olunacağı ehtimalı böyükdür.

Prezident İlham Əliyevin də qeyd etdiyi kimi: "Suriyada baş vermiş dəyişikliklərdən sonra Azərbaycan nümayəndə heyəti ən qısa müddətdə bu ölkəyə göndərilib və Əsəd rejiminin siyasəti səbəbindən uzun müddət fəaliyyətsiz qalmış Azərbaycanın Suriyadakı səfirliyi fəaliyyətini bərpa edib".




Bakı-Dəməşq münasibətlərinin formalaşması və inkişafı hər iki ölkə üçün müsbət nəticələr vəd edir. Prezident İlham Əliyev bildirib ki, Azərbaycan Suriyanın sabitliyinin möhkəmləndirilməsi üçün bu ölkənin bərpasında iştirak etməyə hazırdır. Həmçinin, Suriya yaxın gələcəkdə Azərbaycanın enerji siyasətində də yer ala bilər.

Rəsmi Bakı son illərdə Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli oyunçuya çevrilib. Avropaya nəql edilən təbii qazın həcmi ildən-ilə artır. Lakin bu, hələlik kifayət deyil. Azərbaycan bu istiqamətdə İraqla (xüsusən İraq Kürdüstanı ilə) əməkdaşlıq imkanlarını dəyərləndirir. Suriyanın da Türkiyə ilə quru sərhədinə malik olması onun gələcəkdə TANAP və TAP layihələrinə çıxış imkanlarını artırır. Bu sahədə əməkdaşlıq Dəməşqə ciddi maliyyə vəsaiti gətirə bilər.

Azərbaycan həmçinin Suriyanın təhlükəsizliyi baxımından da mühüm rol oynaya bilər. Bundan başqa, Aprelin 14-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Suriyanın keçid hökumətinin xarici işlər və xaricdə yaşayan suriyalılar naziri Əssad Həsən Əş-Şibani arasında telefon danışığı aparılıb. Telefon danışığı zamanı Azərbaycan-Suriya əlaqələri, regional təhlükəsizlik vəziyyəti müzakirə olunub.

Nazirlər telefon danışığı zamanı Suriyada Əsəd rejiminin dağılmasından sonra



Azərbaycanla Suriya arasında geniş əməkdaşlıq perspektivlərinin mövcud olduğunu bildiriblər.

Söhbət zamanı uzun fasilədən sonra ölkəmizin Suriyada səfirliyinin işinin bərpasına göstərilən dəstəyə görə təşəkkür ifadə olunub. Suriyada sabitliyin möhkəmləndirilməsi istiqamətində səylərə toxunarkən, ölkəmizin Suriyanın bərpa prosesində iştirak niyyətinin, habelə Suriyaya göstərilən humanitar yardımın əhəmiyyəti vurğulanıb. Bu çərçivədə, Azərbaycan-Türkiyə-Suriya əməkdaşlıq formatının inkişaf etdirilməsinin vacibliyi qeyd olunub. Nazirlər, həmçinin qarşılıqlı maraq doğuran ikitərəfli və çoxtərəfli məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Məlum olduğu kimi İsrail Suriyadakı hadisələri yaxından izləyir. Ankara ilə Dəməşq arasında əməkdaşlığın Təl-Əvivə qarşı yönəlməsi İsraili narahat edir. Bu mənada Azərbaycanın İsrail-Suriya münasibətlərində vasitəçi rolunu oynaması mümkündür. Məsələn, Azərbaycanın vasitəçiliyi ilə Türkiyə və İsrail arasında Suriyada arzuolunmaz insidentlərin qarşısını almağa yönəlmiş gərginliyin azaldılması mexanizminin formalaşdırılması üçün razılıq əldə olunub. Bənzər razılaşma gələcəkdə Dəməşq və Təl-Əviv arasında da mümkün ola bilər.

Əvvəllər də qeyd etdiyim kimi, Suriya ilə Azərbaycan arasında mühüm diplomatik yenilik gözləniləndir. Bunu şərti olaraq "Nəsimi diplomatiyası" adlandırmaq mümkündür. Məlum olduğu kimi, 1417-ci ildə Hələbdə vəfat etdiyi bilinən Azərbaycanın böyük şairi İmadəddin Nəsiminin məzarı Suriyadadır. Nəsiminin qalıqlarının Azərbaycana gətirilməsi iki ölkə arasında mədəni və diplomatik əlaqələrin inkişafına ciddi töhfə verə bilər".

MÜNASİBƏT

***Ayşən Vəli***



EKSPERT AÇIQLADI

# Nağdsız ödənişlərin geniş yayılması insanlara nə qazandırır?

"Beynəlxalq təcrübədə nağdsız ödənişlər ümumi valyuta dövriyyəsinin təxminən 98%-ni təşkil edir. Ölkəmizdə isə bu göstərici hələlik 25%-dən yuxarıdır və bu sahədə mühüm işlər görülməkdədir. Nağdsız ödənişlərin artması bir sıra müsbət təsirlər yaradır: ilk növbədə, bu, vergi yığımının effektivliyini artırır və vergidən yayınma hallarının qarşısının alınmasına xidmət edir. Eyni zamanda, nağdsız ödənişlər müqavilələrin icrasını daha təhlükəsiz və şəffaf edir. Köçürmələr zamanı vəsaitlər rəsmi




şəkildə sənədləşdirilir və bu, tərəflər arasında mümkün fırıldaq hallarını minimuma endirir. Bununla yanaşı, beynəlxalq terrorçuluq və digər cinayət yolları ilə əldə olunan vəsaitlərin dövriyyəsinin qarşısı alınır". Bu sözləri SİA-ya açıqlamasında İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri, iqtisadçı-ekspert Eyyub Kərimli deyib.

Onun sözlərinə görə, ölkəmizdə bu istiqamətdə atılan mühüm addımlardan biri də "ƏDV geri al" mexanizmidir: "Bu təşəbbüs nağdsız ödənişlərin artımına ciddi şəkildə təkan verir və dövriyyədə şəffaflığı təmin edir. Bu həm də bank sektorunun inkişafına mühüm töhfə verir. Əhali və sahibkarlar bu sistemdən rahatlıqla istifadə edir və gündəlik maliyyə əməliyyatlarını asanlıqla yerinə yetirirlər. Nağdsız ödənişlərin geniş yayılması insanlara vaxt və əməliyyat rahatlığı qazandırır. Artıq bank əməliyyatları üçün fiziki olaraq bir yerə getmək lazım deyil - mobil tətbiqlər və onlayn bankçılıq vasitəsilə istənilən yerdən əməliyyat aparmaq mümkündür".

Ekspert həmçinin qeyd edib ki, bununla belə, artan rəqəmsal dövriyyə kibertəhlükəsizlik məsələsini də aktuallaşdırır: "Bu risklər daim mövcuddur və nağdsız ödənişlərin artımı ilə təhlükəsizliyin təmin olunması da bankların və müvafiq qurumların əsas vəzifələrindən birinə çevrilir. Gələcəkdə bu sahədə texnoloji imkanların və müdafiə mexanizmlərinin daha da təkmilləşdiriləcəyi gözlənilir.

Digər tərəfdən, nağdsız dövriyyənin tam tətbiqi üçün bəzi infrastruktur problemləri qalmaqdadır. Xüsusilə ucqar bölgələrdə postterminalların azlığı, eləcə də internet və enerji təminatının qeyri-sabit olması müəyyən çətinliklər yaradır. Bu səbəbdən, bəzi hallarda vətəndaşlar və sahibkarlar yalnız nağd vəsaitdən istifadə edə bilirlər. Bu problemlərin aradan qaldırılması isə nağdsız iqtisadiyyatın tam şəkildə tətbiqinə imkan verəcək. Nağdsız dövriyyənin artması şəffaflığa və sahibkarlığa böyük əhəmiyyətdə təsiri vardır. Lakin burada bankların tətbiq etdiyi faizlər həddən artıq çoxdur. Bu il faizlərdən banklar 360 milyon manat pul qazanıb. Həmçinin həm nağdlaşmağa, həm də digər ödənişlər etməyə banklar 1,5-2% aralığında xidmət haqqı tuturlar. Bu baxımdan məqsədəuyğun olardı ki, faizlər azaldılsın. Çünki biz əgər nağdsız dövriyyənin artmağını istəyiriksə, sahibkarlarda nəzərə almalıyıq. Əsasəndə kiçik və orta sahibkarlar bu cür dövriyyədən xeyli vəsait itirir".

***Xeyrənsə Piriyeva***

# Uşaq paltarlarını necə yumaq olar?

***Körpələrin dərisi çox həssas olduğundan onların paltarları da xüsusi qulluq tələb edir. Böyüklərin paltarı ilə yuyulmamaq, ağardıcı ilə təmasda olmamaq kimi bir çox detalı sadalayan Dermatologiya Mütəxəssisi Kubilay Yücel bu mövzuda analara xəbərdarlıq edir. Uşaq paltarları necə olmalıdır? SİA mövzu ilə bağlı araşdırma aparıb.***



## Körpə dərisinin bu qədər həssas olmasının səbəbi

Bunun səbəbi dərinin hələ də xarici faktorlara məruz qalmaması, dəridə yağ təbəqəsinin aşağı olması və bu səbəbdən dərinin xarici faktorlara qarşı qoruyucu təbəqəsinin tam formalaşmamasıdır. Məsələn, körpə dərisində regional keratin təbəqəsi inkişaf etməmişdir. Bu səbəbdən uyğun olmayan geyimlər dəridə qızartı və həssaslığa səbəb ola bilər. Eynilə, kimyəvi qıcıqlandırıcı təmizləyici materiallar və yuyucu vasitələr də eyni



mənfi təsirləri yaradır.

Dəri bədən istiliyinə nəzarətdə mühüm rol oynayır. Bu səbəbdən pambıq və yüksək hopdurucu materiallardan hazırlanmış paltarlara üstünlük verilməlidir. Geyimdə metal və sərt plastikə üstünlük verilməməlidir. Çin istehsalı olan paltarların tərkibində kanserogen maddələrin ola biləcəyi diqqətdən kənarda qalmamalıdır.

## Uşaq paltarlarını necə yumaq olar?

* Körpənin dəri quruluşu böyüklərin dərisindən fərqli olduğu üçün öz çamaşırlarınız üçün istifadə etdiyiniz yuyucu vasitələr körpənizin dərisinə zərər verə bilər. Bu səbəbdən uşaq paltarları böyük paltarından ayrı yuyulmalıdır.

* Paltarların marka etiketlərini çıxarsanız, körpənizin dərisinin qıcıqlanmasının qarşısını almış olarsınız.

* Körpənizin yeni paltarları əvvəlcə yuyulmalı, sonra ütülənməlidir.

* Körpənizin paltarlarını yuyarkən dərisini qıcıqlandırmamaq üçün onları ağardıcı və ya oxşar yuyucu vasitələrlə yumamalısınız. Körpənin dərisinə uyğun olmayan yuyucu vasitələrdən istifadə edildiyi üçün qaşınma və qızartı kimi yan təsirlər yarana və gələcəkdə allergik kontakt dermatit inkişaf edə bilər.

* Uşaq paltarları üçün xüsusi olaraq istehsal edilən yuyucu və ya sabun tozlarını seçməlisiniz. Paltarları yumazdan əvvəl yuyulma təlimatını oxumaq və ona uyğun yumaq lazımdır. Maye yuyucu vasitələr seçə bilərsiniz, çünki onları yaxalamaq daha asandır. Uşaq paltarları çox yaxşı yuyulmalıdır. Yuyulmuş paltarları mütləq açıq havada qurutmalı və ütüləməlisiniz. Ütüləmə təmin etdiyi yüksək temperatur sayəsində gigiyenik effekti artırır.

Yuyulduqdan sonra körpənizin paltarlarını günəşli yerdə qurudun. Günəş işığı bəzi bakteriyaları məhv etməyə kömək edir. Çamaşırlar quruduqdan sonra onu sərin, quru yerə və ya uşağınızın şkafına qoyun.

Yeni doğulmuş körpələrin və çox azyaşlı uşaqların paltarlarını yuyarkən diqqətli olun. Bu, onların dəri sağlamlığını qorumaq üçün ilk addımlardan biridir. Uşaq paltarları düzgün proqramda və müvafiq yuyucu vasitə ilə yuyulursa, körpənin dərisində qaşınma və qıcıqlanma olmaz. Bəzi körpələrin dərisi atopik olduğundan paltarlar daha zərif yuyulmalıdır. Bütün bu məsələlərə tək-tək toxunacağımız bu yazıda ailələrə körpə paltarlarının yuyulmasının ən yaxşı üsullarını və uyğun temperaturu izah edəcəyik. Uşaq paltarlarını necə və nə ilə yuyacağı ilə maraqlanan valideynlər qələm və kağız çıxarıb ən vacib məlumatları yazmalıdırlar. Çünki körpə doğulduqdan sonra paltar yumaq heç vaxt bitməyəcək.

## Uşaq paltarlarını hansı temperaturda yumaq lazımdır?

Rəngli və naxışlı uşaq paltarlarını paltaryuyan maşında yuyarkən 30 dərəcənin ideal olduğunu bilməlisiniz. Çünki 30 dərəcədə və isti yuyulan uşaq paltarları heç bir zərər görmədən təmizlənir. Rəngin solmasının qarşısını almaq üçün yüksək temperaturdan qaçınmaq da vacibdir.

Ağ və bej rəngli uşaq paltarlarını 40 dərəcədə maşında yumaq daha effektli nəticə verəcək. Ağlar üçün tövsiyə olunan 40 dərəcə yuma rejimində açıq rəngli və düz uşaq paltarlarını ləkəsiz şəkildə təmizləyə bilərsiniz. Ağlar üçün çox yüksək yuma temperaturu seçilərsə, paltarın büzülməsi riski artır. Muslin parça məmulatlarının aşağı temperaturda yuyulması daha yaxşı nəticə verəcəkdir.

## Uşaq paltarlarının yuyulma tezliyi

Körpələrin dərisi həssas olduğu üçün baxımlarında və paltarlarının təmizlənməsində də eyni həssaslığı gözləyirlər. Bu səbəbdən gün ərzində bütün uşaq paltarlarını yumaq məsləhətdir. Körpə paltarlarında ləkə, kir və digər faktorlar qaldıqda bəzən onları təmizləmək çətinləşə bilər.

Körpə paltarlarını nə qədər tez-tez yumaq lazım olduğunu düşünən ana və atalarahər gün yuyulmağı tövsiyə edə bilərik. Çünki körpələr həyatın ilk illərində mədə və həzm sistemi nizamlanana qədər tez-tez qusarlar. Bəzən uşaq bezinin daşması paltarı da çirkləndirir. Bu səbəbdən paltar ehtiyacını dərhal qarşılamaq üçün gün ərzində çirkli paltarlar yuyulmalıdır. Körpənin çoxlu alt köynəyi, pijaması, corabı, bodisi və digər paltarları varsa, paltaryuyan maşını 2 gündə bir işlədilə bilər. Ancaq qeyd etmək lazımdır ki, paltarda qalan ləkəni çıxarmaq bəzi hallarda çətin ola bilər. Xüsusilə dəmir həb ləkələri bir çox paltarı ləkələyə bilər.



* Uşaq paltarlarının yuyulması texnikası

Bəzən valideynlər körpə paltarlarını yuyarkən bədbəxt hadisələrlə üzləşə bilərlər. Bu bəlalardan biri olan corabın itirilməsi ailələri güldürür, düşündürür. Uşaq corablarının itkisinə son qoymaq üçün indi xırda corabların yuyucu şəbəkədə yuyulması texnikası tətbiq edilir.

Körpə paltarlarını maşında yumaq istədiyiniz zaman onları əvvəlcədən yuyub sonra müvafiq proqramda yumağa davam edə bilərsiniz. Əvvəlcədən yuyulma paltarları tozdan təmizləyir.

Əl yuma texnikası incə körpə paltarlarını yumaq üçün tətbiq oluna bilər.

Körpələrin paltarlarını yuyarkən xüsusi çirkli səbətdən istifadə edilməlidir. O, böyük paltarından ayrı saxlanmalı və təmizlənməlidir. 1,5 yaşından sonra istəsəniz qarışıq paltarları yuya bilərsiniz.

## Yeni doğulmuş körpənin paltarlarını necə yumaq olar?

Son həftələrdə doğuşa hazırlaşan cütlüklərin ən çətin işlərindən biri də yeni doğulmuş uşağın paltarlarını təmizləmək və nizamlamaqdır. Yeni doğulmuş körpə paltarlarını yuyarkən bəzi tövsiyələrə diqqət yetirməklə daha yaxşı nəticələr əldə etmək olar. Siyahıda bu təklifləri görmək mümkündür:

İlk növbədə, yeni doğulmuş paltarların etiketləri kəsilməlidir.

Etiketi kəsilmiş paltarlar üçün uyğun yeni , yuyucu vasitə verilir.

İstəyirsinizsə, ilk paltarları yalnız isti su ilə yuya bilərsiniz.

Ağ alt köynəkləri və kostyumları 40 dərəcədə yumaq məsləhətdir.

Rəngli yeni doğulmuş paltarları 30 dərəcədə yuya bilərsiniz.

Yuduğunuz paltarları qatlamadan əvvəl ütüləyə bilərsiniz.

## Uşaq paltarları əllə yuyula bilərmi?

Bəzən körpə paltarlarını əllə yumaq istəyənlər də ola bilər. Kiçik ləkələri dərhal çıxarmaq üçün əl yuma edilə bilər. Bəs, körpə paltarlarını əl ilə necə təmizləmək olar? Addım-addım nə edəcəyimizi danışaq:

* Əgər paltar ləkələnibsə, onu isti suda islatmaq məsləhətdir.

* İsti suda saxlanılan körpə paltarları ləkələrdən daha asan təmizlənəcək.

* Uşaq paltarları təxminən 30 dəqiqə isti suda saxlanılır və sabunla yuyulur.

* Sabunu çıxarmaq üçün bol su ilə yuyun.

* Sonra paltar sıxılır və su boşaldılır.

* Suyu buraxan körpə paltarları asılır və qurumasını gözləyirlər.

* Əl yuma zamanı yuyucu toz, sabun və fırçanın köməyi ilə daha asan təmizliyə nail olmaq olar.

## Ləkəli körpə paltarları hansı temperaturda yuyulmalıdır?

Bəzi hallarda körpə paltarlarında ləkələr yarana bilər. Əlavə qidalanmaya keçid zamanı dəmir əlavələrindən və qida qalıqlarından istifadə paltarda ləkələr buraxa bilər. Xüsusilə tərkibində tomat pastası, yağ, pomidor və qırmızı meyvələr olan yeməklər paltarları ləkələyə bilər. Ləkəni çıxarmaq üçün ilk tətbiqin edilməsi tövsiyə olunur. Bunun üçün ləkənin üzərinə yuyucu toz tökə və ya ləkə təmizləyici sprey edə bilərsiniz. Sonra maşında yuyulur. Ləkəli uşaq paltarlarını 40 dərəcədə yumaq mümkündür. İsti yuma edildikdə, ləkə daha asan təmizlənir.

Körpəlik dövrü bir az irəlilədikdə və yaş 3-4 civarında olduqda paltarların yuyulma dərəcəsi dəyişə bilər. Bəzi hallarda 60 dərəcə yuyulma daha məqsədəuyğun hesab edilir. Paltarların daha gigiyenik yuyulması üçün, xüsusilə uşaq bezi süddən kəsilmə dövründə isti yuyulma üçün 60 dərəcə seçilə bilər.

## Uşaq paltarları hansı temperaturda ütülənməlidir?

Təmizləndikdən sonra istəsəniz kiçik paltarlar ütülənə bilər. Ütüləmə temperaturu da diqqətlə seçilməlidir. Çünki yüksək temperaturdan istifadə edilərsə, parça yana bilər. Geyim nəm deyilsə, pambıq proqramı seçilə və təxminən 180 dərəcə ütülənə bilər. Bir az nəm olan paltarlar ütülənəcəksə, 200 dərəcəyə qədər diqqətlə ütülənə bilər.

***Ayşən Vəli***

ARAŞDIRMA

# “Maskalar kənara tullanılıb, hücum silahları göndərilir”

*Xankəndinin millət vəkili Tural Gəncəliyevin SİA-ya müsahibəsini təqdim edirik:*

***- Aprelin 11-də Türkiyənin Antalya şəhərində Antalya Diplomatiya Forumunun açılış mərasimi oldu. Ümumiyyətlə, forum nə ilə yadda qaldı?***

- Antalya Diplomatiya Forumu gözümüzün önündə dünyanın ən aparıcı diplomatik forumlarından birinə çevrildi. Artıq dördüncü dəfədir ki, keçirilir. İldən-ilə bu forumun nüfuzu, çəkisi daha da artır. İlk üç forumda şəxsən iştirak edən biri kimi deyə bilərəm ki, həqiqətən də, çox möhtəşəm tədbirdir. Dövlət başçımız ilk dəfə olaraq həmin foruma qatıldı. Maraqlıdır ki, cənab Prezident məhz Antalya Diplomatiya Forumuna ADA Universitetindəki çıxışından sonra getdi. Bir növ rəmzi məna daşıyır. Xankəndində ADA Universitetinin forumu başladı, sonra Bakıda cənab Prezidentin iştirakı ilə davam etdi. Sonra cənab Prezident Antalyaya yollandı. Bu forum həm də onu göstərir ki, dünyanın geosiyasi güc məkanı avroatlantik məkandan yavaş-yavaş Avrasiya məkanına, xüsusilə də, bizim regiona, Qara dəniz, Xəzər dənizi, Aralıq dənizi regionuna keçir. Bu da yeni reallıqların artıq meydana çıxmasına səbəb olur. Çünki Antalya Diplomatiya Forumuna gələn qonaqların siyahısına baxsaq, o deməkdir ki, dünyanın siyasi nəbzi orada atır. Dünyada müxtəlif forumlar var. Artıq Antalya Diplomatiya Forumu mühüm dünya tədbirlərinin sırasına daxil olur. Bəlkə də, gələn illərdə birinci olacaq.

***- Bu forum sizin üçün daha çox nə ilə yadda qaldı? Verilən mesajlar nədən ibarət idi və yaxın zaman ərzində bu məsələlər öz həllini tapa bilər?***

- Bu forum mənim yaddaşımda xüsusilə də, ADA Universitetində keçirilən mövzunun davamı kimi qaldı. Dünyada yeni nizam qurulur. Artıq ikinci dünya müharibəsindən sonra mövcud olan nə beynəlxalq təhlükəsizlik sistemi, nə beynəlxalq təşkilatlar özünü doğrultmur. Cənab Prezidentin də, Türkiyə Cumhurbaşkanının da dediyi kimi yeni sistemə, yeni dünya düzəninə ehtiyac var. Mənim yadımda bu forum onunla qaldı ki, Türk dünyası, Azərbaycan, Türkiyə çoxqütblü formalaşan yeni dünya nizamında öz yerini tutur. Biz buna hazır vəziyyətə gedirik. Cənab Prezidentin orada keçirdiyi görüşlərin kontekstinə baxsaq, görərik ki, həqiqətən də, Türk dünyası, Azərbaycan, Türkiyə bu regionda əsas açar oyunçular kimi çıxış edəcək.




***- Azərbaycanla Ermənistan arasında sülh mətni üzərində razılaşmanın əldə edilməsi açıqlandıqdan sonra şərti sərhəddə erməni təxribatı dayanmır. Sizcə, nə baş verir?***

- Qarşı tərəf, təəssüflər olsun ki, müstəqil siyasət yürüdə bilmədiyi üçün öz taleyi əlində deyil. Burada qarşı tərəfin havadarları nə istəyir önəmlidir. Fransa, Avropa İttifaqındakı ölkələrin nə istədiyini misal göstərə bilərik. Onlar Cənubi Qafqazda sülhün olmasını istəmir. Çünki Cənubi Qafqazda 30 il davam etmiş münaqişə, işğal müxtəlif üçüncü qüvvələrə imkan verirdi ki, bulanıq suda balıq tutmaq üçün davam etsinlər. Ancaq biz bunların məkrli, çirkin əllərini, Cənubi Qafqaza uzanan əllərini kəsib atdıq. Ona görə də, indi onlar fürsət axtarırlar ki, Ermənistana silah versinlər. Ermənistanın sülh müqaviləsindəki bəndlərlə, Zəngəzur dəhlizi ilə bağlı öhdəlikləri var. Fransa, Ermənistan, Avropa İttifaqındakı ölkələr bunu istəmir. Nəzərə alsaq ki, Ermənistanın mövqeyi indi bir az daha zəifdir. Çünki əvvəl iki sütuna söykənirdi. Həm Avropa İttifaqına, həm də Bayden Adminstrasiyasına güvənirdi. İndi Bayden Adminstrasiyası yoxdur. Ona görə də, onların yeganə ümid yeri olan Fransa yenə də Zəngəzur dəhlizinin açılmasında maraqlı deyil. Ancaq onların bütün arzuları ürəklərində qalacaq.

***- Mütəmadi olaraq Ermənistana yönəlik silahlar, texnikalar gedir. Demək olar ki, Ermənistan növbəti müharibəyə hazırlaşır?***

- Bəli, maskalar kənara tullanılıb, hücum silahları göndərilir. İttifaq qurulur. Fransa, Ermənistan, Yunanıstan, Hindistan piyada kimi istifadə olunur. Bilirsiniz ki, hətta Fransa bu məkrli siyasətini Cənubi Qafqazda həyata keçirə bilməyib. Avropa İttifaqı ölkələri ilə Mərkəzi Asiya ölkələri arasında sammiti də müzakirə edə bilərik. Onlar hər yerə öz məkrli siyasətlərinin bir ünsürünü atırlar. Türk dünyasının, Avrasiya regionunun stabil olmasına imkan vermirlər. 20-ci əsrin əvvəllərində məşhur geosiyasət nəzəriyyəsinin banilərindən birinin nəzəriyyəsinə görə, kim Şərqi Avropaya nəzarət edirsə, böyük Hartland deyilən əraziyə nəzarət edir, kim Hartlanda nəzarət edirsə, bütün Avrasiya regionuna nəzarət edir. Bu təfəkkürlə hesab edirlər ki, Avrasiya regionunda meydana çıxan güclü Azərbaycan, Türkiyə, türk dünyasının qarşısını almaqdan ötrü həm Mərkəzi Asiyaya, həm Cənubi Qafqaza təxribatları göndərəcəyik. Biz buna hazırıq. Söhbət təkcə hərbidən getmir, diplomatik savaş, siyasi savaş var. Fransanın yeni müstəmləkəçilik siyasətini ifşa edirik. Mən Fransa Parlamentinin iclaslarını izləyirəm. Elə bir iclas yoxdur ki, onlar Azərbaycana qarşı danışmasınlar. Biz Avropa Şurası Parlament Assambleyasının üzvlüyündən çıxmışıq, oranı tərk etmişik. AŞPA-da olanda da görürdüm ki, işləri, gücləri Azərbaycana qarşı sənəd qəbul etmək idi. İndi isə biz də yoxuq. Nəyi hədəf alacaqlarını heç özləri də bilmirlər. Biz AŞPA-da olanda heç olmasa deyirdilər ki, bütün resursların Azərbaycana qarşı istifadə etsinlər. İndi isə Fransa bizi AŞPA-da tənqid etmək hədəfindən məhrum olub. Ona görə də, parlamenti vasitəsilə davam edir.

***- Ermənistan baş nazirinin həftə sonu Mehriyə səfəri planlaşdırılır. Qeyd olunur ki, bu səfər Zəngəzur dəhlizinin açılmasına yönəlib. Nikol Paşinyanın Mehriyə səfərinin əsas sirri nədən ibarətdir?***

- Zəngəzur dəhlizi, onsuz da, açılmalıdır. Bu, Ermənistanın istəyindən asılı deyil, onun öhdəliyidir. 2020-ci ilin üçtərəfli bəyanatı var. Biz Naxçıvana koridor vasitəsilə birləşməliyik. Bunun başqa yolu yoxdur. Bütün dünya Zəngəzur terminini qəbul edir. Hətta Fransa, ABŞ, hamı bu termini qəbul edir. Ancaq fakt deyil ki, Ermənistan baş nazirinin Mehriyə gəlməsi ilə Zəngəzur dəhlizinin açılmasına ehyam edir. Təxribat da ola bilər. Avropa İttifaqının bir missiyası orada yersiz şəkildə var-gəl edir. Son günlər həm Naxçıvan istiqamətindən, həm Qazax, Tovuz istiqamətindən atəşkəs pozulur. Azərbaycan-Ermənistan quru sərhədi 1000 kilometrə yaxındır. Ona görə də, Paşinyanın oraya gəlməsini təxribat kimi də qiymətləndirmək olar. Ancaq yenə də tunelin sonunda işıq var. İnşallah Zəngəzur dəhlizi açılacaq. Çünki bu, Böyük Orta Dəhliz deyilən layihənin tərkib hissəsidir. Çindən Avropaya uzanan minlərlə kilometr koridor 40 kilometrlik Zəngəzur dəhlizinin açılmamasına görə funksional deyil. Bir neçə destruktiv qüvvəni çıxsaq, Çin də istəyir ki, dəhliz açılsın. Avropa İttifaqının da buna marağı olmalıdır. Çünki Şimal koridoru Rusiya üzərindən işləmir. Yaxın Şərqdə, dənizlərdən situasiya çətindir. Ona görə də, bu dəhlizin açılması dünyanın qlobal iqtisadiyyatı üçün də lazımdır.

***- Azərbaycanın Ermənistanın qarşısında qoyduğu şərtlərdən biri də ATƏT-in Minsk qrupunun ləğv edilməsi ilə əlaqədardır. Minsk qrupu nə vaxt dağılacaq?***

- Onsuz da, bu qurup defakto fəaliyyət göstərmir. Amma kağız üzərində qalıb. Minsk qrupu o zaman tamamilə dağılan bilər ki, Ermənistan da razılıq versin. Azərbaycan "hə" deyir. Yeri gəlmişkən Antalya Diplomatiya Forumunda Arayat Mirsonyanın da bəyanatı var. Özlərini belə tədbirlərdə sülh göyərçini kimi göstərirlər. Hətta Minsk qrupunun ləğv edilməsi haqqında Ermənistanın bəzi rəsmiləri də razılıq verirlər. Ancaq bunu alver obyektinə çevirmək istəyirlər. Deyirlər ki, Ermənistan konstitusiyası toxunulmazdır, orada bizə qarşı ərazi iddiası qalır. Guya, Minsk qrupunun ləğv edilməsinə razıdırlar. Ancaq belə olmaz, belə olmayacaq da. Çünki Azərbaycanın təklif etdiyi sülh müqaviləsinin layihəsində bu məsələlər açıq şəkildə olmuşdu. Zəngəzur dəhlizinin açılması, Minsk qrupunun ləğvi, Ermənistan konstitusiyasının dəyişdirilməsi qeyd edilmişdi. İndi Ermənistan bəzən bu bəyanatları səsləndirir ki, Azərbaycan yeni iddialar irəli sürür, yeni tələbləri var. Xeyr, 2020-ci ildən, hətta nəzəri şəkildə də 30 il ərzində bu məsələlər gündəmdə olub.

**Söylü Ağazadə**

---

# Özəl lisey və məktəblərin illik təhsil haqları niyə bahadır?

*Ekspert mühüm məqamları açıqladı*

**“Azərbaycanda özəl məktəb və liseylərin illik təhsil haqlarının baha olmasının bir neçə ciddi və bir-biri ilə bağlı səbəbi var. Bu məsələyə yalnız qiymət prizmasından deyil, struktur, iqtisadi və hüquqi müstəvidə yanaşmaq vacibdir. Təhsil haqlarının yüksək olması təkcə tədris keyfiyyətinə deyil, həm də sistemin tənzimlənməsindəki boşluqlara, dövlət siyasətinin bu sahəyə yanaşmasına bağlıdır”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.**

Kamran Əsədov sözlərinə belə davam edib: "Əvvəla, Azərbaycanda özəl təhsil sektoru tamamilə kommersiya əsaslı fəaliyyət göstərir. "Təhsil haqqında" Qanunun 13.1-ci maddəsində göstərilir ki, özəl təhsil müəssisələri təsisçinin və ya hüquqi şəxsin hesabına yaradılır və maliyyə dayanıqlığını öz üzərinə götürür. Yəni dövlət bu müəssisələrə birbaşa maliyyə dəstəyi göstərmir, subsidiya ayırmır. Bu səbəbdən, həmin məktəblər özlərinin əməkhaqqı fondu, infrastruktur, kommunal xərclər, müəllimlərin əlavə ödənişləri, dərslik və resursların təminatı, texnoloji baza, marketinq və idarəçilik xərclərini yalnız təhsil haqqı ilə qarşılamalı olur. Bu isə təbii olaraq qiymətləri artırır.




İkincisi, özəl məktəblərdə çalışan müəllimlərə dövlət məktəbləri ilə müqayisədə daha yüksək əməkhaqqı verilir. Məsələn, bir çox özəl məktəbdə müəllimlərə aylıq 1500-2500 manat arası maaş ödənilir. Bu, dövlət məktəblərindəki orta əməkhaqqı ilə (təxminən 500-800 manat) müqayisədə xeyli yüksəkdir. Eyni zamanda bu müəssisələr müəllimlərdən yalnız dərs deməyi deyil, əlavə hazırlıq, tədbir təşkili, şagirdlərlə fərdi məşğələ, psixoloji və sosial dəstək fəaliyyəti də tələb edir. Belə şəraitdə yüksək maaş siyasəti qiymətə birbaşa təsir göstərir. Digər mühüm səbəb tədris infrastrukturudur. Özəl məktəblər valideynlərə müasir laboratoriyalar, idman zalları, robototexnika otaqları, STEAM dərsləri, beynəlxalq proqramlar (Cambridge, IB, A-level və s.), ikinci və ya üçüncü xarici dil, kulinariya, şahmat, rəqs kimi əlavə kurslar təqdim edir. Azərbaycanda özəl təhsilin qiymət tənzimləməsinə dair konkret mexanizm yoxdur. Dövlət yalnız lisensiya və akkreditasiyaya nəzarət edir, lakin qiymət siyasətinə müdaxilə etmir. Bu isə bazar mexanizmini tamamilə sərbəst buraxır. Nəticədə, xüsusilə Bakıda yerləşən nüfuzlu məktəblər qiymətləri süni şəkildə də şişirdə bilir. 2024-cü ildə bəzi özəl məktəblərdə illik təhsil haqqı 18-25 min manat arasında dəyişir. Bəzi məktəblərdə isə bu məbləğ 30 min manata çatır. Bu qiymət, Azərbaycanın orta illik gəlir səviyyəsi (təxminən 8-10 min manat) ilə müqayisədə son dərəcə yüksəkdir və təhsil sistemində ciddi sosial təbəqələşməyə səbəb olur.



Dünya təcrübəsində, məsələn, Finlandiya, Estoniya və Niderlandda dövlət özəl məktəbləri maliyyələşdirir və onları ictimai missiyanın daşıyıcısı kimi qəbul edir. Bu ölkələrdə özəl məktəblər "public-private partnership" (ictimai-özəl tərəfdaşlıq) modeli ilə fəaliyyət göstərir və təhsil haqqının əsas hissəsini dövlət ödəyir. Bu da təhsilin əlçatanlığını qoruyur və keyfiyyətlə kommersiya arasında balans yaradır. Türkiyədə isə bir neçə il öncəyə qədər dövlət hər bir şagird üçün özəl məktəblərə başına düşən təhsil xərci üçün müəyyən məbləğ (təxminən 3-5 min TL) subsidiya ayırırdı. Bu sistem sonradan ləğv olunsa da, təcrübə olaraq maraqlıdır. Əgər bu sahədə ciddi tənzimləmə və təşviqedici siyasət tətbiq olunmazsa, gələcəkdə təhsilin sosial əlçatanlığı daha da məhdudlaşacaq".

**Ayşən Vəli**

# İDEAL AİLƏ: kaş ki...

***İdeal ailə... Bu, hər bir şüurlu insanın arzu edəcəyi bir ailə formasıdır. Bu bizim ata öyüdümüz, ana südündən aldığımız ilk mənəvi qidadır. Bu bizim evliliyə qədəm qoyduğumuz an böyüklərimizdən aldığımız xeyir-duamızdır. Yaşadığımız hər yerdə- kiçik kənddən tutmuş böyük şəhərədək, hörmət, izzətimizdir. Bizim kimliyimizi, əsl-nəcabətimizi, ənənəvi dəyərlərimizi, milli mentalitetimizi təsdiq edən amildir. Cəmiyyətdə mövqeyimiz, ümumilikdə isə dövlətimizə kənardan verilən qiymətdir. Axı ideal ailənin fərdləri həm də mənsub olduqları dövlətin ideal vəziyyətə gəlmə səbəbidir.***



## Anam deyirdi ki...

Belə isə əsl söhbətə keçmək istəyirəm. Bu barədə fikirlərimi yazmaq üçün istinadgahım illər öncə anamla olan söhbətim əsasında keçmişlə bu günümüzün müqayisəsi olacaq. Müasir dövrümüzdə ideal ailələr barmaqla sayılırsa, keçmişlərdə bu hal ideal olmayan ailələr üçün belə idi. Çünki bəzi müasirlərin bəyənmədiyi o ailələrdə böyüyün kiçiyə, kiçiyin böyüyə hörməti sonsuz idi.

Anam deyirdi: ata, yox, deyəndə onun sözü çevrilmirdi ki, niyə yox? İstədiyimizi analarımıza anlatmaqla atamıza çatdırardıq. O da atamıza söyləyər, məsləhət bilsəydilər, rəva görərdilər. Beləliklə, ata-anayla övlad arasında pərdə yaranardı. Bu arada, pərdə bu pəncərədən asılan pərdə deyil ha, o pərdə abırhəyadan, hörmətdən olurdu, gözə görünən deyildi, hiss edilən, yaşanan idi.



Ev sözsüz, gor əzabsız olmaz, deyib atalarımız. Evlərimizdə bir söz olanda onu çox böyütməzdik, birimiz od olanda, o birimiz su olardıq, heçnə olmayıbmış kimi davranardıq. Evin kişisi içəri girəndə ayağa qalxar, yer göstərər, qulluğunda dayanardıq. Bunları da övladlarımız görürdü, götürürdü. Ailə bir yerə yığışmayınca süfrə açılmazdı. Süfrə başında da hər kəsin yeri bəlli olardı, hərəkəti bəlli olardı.



Qayınatamızla, qayınanamızla, baldız, qayınımızla bir evdə yaşamışıq. Hər kəsin bir-birinə böyük hörməti olub, hər kəs bir-birinin yerini bilib. Qonaqlı-qaralı olmuşuq, evin işini bir-birimizin üstünə atmamışıq. Birgə, deyə-gülə hər bir işi yerinə yetirmişik. Uşaqlarımızı da birlikdə böyütmüşük, necə deyərlər, qaynamışıq, qarışmışıq. Mən demirəm ki, sözümüz olmayıb. Bunu desəm də mənə inanan olmaz, olub. Amma biz o söz-söhbəti böyütməmişik, bir-birimizi başa düşüb bağışlamışıq. Bağışlamaq da ən böyük mədəniyyətdir, bunu bilərsən.



İnanırsan, bala, qayınatam evə girəndə necə həyəcanla ayağa qalxmaq istəmişəmsə, dəfələrlə az qalıb uşaq qucağımdan düşə. Rəhmətlik yoldaşımsa bir dəfə də olsun ata-anasının yanında uşaqlarımızı qucağına götürmədi, onlarla əməlli-başlı danışmadı. Qayınanam söz-söhbəti sevməyən adam idi. İstəməzdi ki, evdə kiçik bir sözdən inciklik yaransın. Mənim də, qızlarının da yerini yaxşı müəyyənləşdirirdi. Onun bu xasiyyətinə hörmət əlaməti olaraq bizlər də öz yerimizi bilir, hərəkətimizi, davranışımızı nəzarətdə saxlayırdıq. Bütün bunları isə evimizdə böyütdüyümüz qızımız, oğlumuz görürdü, bu tərbiyə altında yetişirdilər. Onlar da təbii ki, gördüklərini öz ailələrində tətbiq edirdilər.

O vaxtlar toylar indiki kimi restoranlarda keçirilmirdi. Elə gözəl həyət toyları təşkil olunurdu ki, illərlə onun xoş xatirələri yaddaşlardan silinmirdi. Bütün el, qohum-qonşu, uşaq-böyük bir araya gələrdi, halay vurub rəqs edərdi. İki cür yemək hazırlanardı, indiki kimi israfçılıq baş alıb getmirdi. Hamı bu yeməklərdən yeyirdi, uşaqlara isə elə toy qazanının başındaca dürmək tutulurdu. Bu dürməklər onların ikinci toy sevincinə çevrilirdi. Bunları deməkdə məqsədim var. İndi bahalı restoranlara uşaqları aparmırlar. Axı orada hər şey saynandır. Uşaqlar artıq toy adət-ənənələrimizdən kənarda qalıblar. Bu, çox böyük bəladır. Uşaq öz bibisi, dayısı, xalası, əmisi qızının, oglunun toyunda iştirak edə bilmirsə, nə baş verir? Bir-birindən uzaqlaşma. İndi ailə dəyərlərindən danışırıq. Ailə dəyərlərini özümüz də dərk etmədən məhv edirik, onun inkişafının qarşısını alırıq, kiçikkən yerindəcə boğuruq.

Ailə dəyərləri və müasirlik budurmu? Bu hərəkətlərlə ideal ailəyə doğru getmək olarmı? Ay bala, bu gün bir-birinin toyunda iştirak etməyən uşaqlar böyüyəndə də bir-birilərinin evinə gəl-get etmirlər. Nəticə nə olur?-yadlaşma. Bəzi valideynlər uşaqlarını o qədər televizor qarşısına əyləşdirib sərbəctcəsinə işlərinin arxasınca gedirlər ki, onlar evə alışırlar, bağlanırlar. Cizgi filmləri zaman-zaman yerini dizilərə verir, insanı televizor qarşısına kilidləyir. Əvvəllər günümüz qohum-əqraba evində keçərdi, sevincimizi paylaşardıq, kədərimizi bölüşərdik. İndi ən yaxın xəstə qohumunu yoluxmayanları tanıyıram. İdeal ailəni tək nənə-baba, ata-ana, bacı-qardaş formalaşdırmır ki... İdeal ailəni yuxarıda sadaladığım faktorlar yarada, ya da məhv edə bilər.

## Dırnaqarası müasirlik

Anamla söhbətim nə qədər maraqlı keçmişdisə, bir neçə saatın ötdüyünü fərq etməmişdim. Onu qucaqlayıb öpmüşdüm. Həqiqətən də anam dediklərinin hər birində haqlı, həm də çox haqlı idi. O vaxt çox valideyn övladını o ruhda tərbiyə edirdi.

İndi də əksər ailələrimizdə ailə dəyərləri qorunur, ona hörmətlə yanaşılır. Biz azərbaycanlıyıq, bizim qədim ailə mədəniyyətimiz , adət-ənənələrimiz var, başqa cür ola da bilməz. Lakin gəlin onu da etiraf edək ki, ailə dəyərlərimizə dırnaqarası müasirlik qatanlar da az deyil. Məsələn, indi elə gənclərimiz var ki, evlənməmişdən əvvəl qız oğlan qarşısında şərt qoyur: biz ata-ananla bir yerdə yaşamayacağıq, ayrı yaşamalıyıq. Bax, yeni qurulan bu ailədə artıq ideal ailə rüşeymi cücərmədən məhv edilir. Və yaxud ikinci bir misal. Yeni ailə qurulur, ata-anayla birgə yaşayırlar. Təzə gəlin səhər saat 11-də oyanır, "sabahınız xeyir", "gecəniz xeyirə qalsın" sözləri, ümumuyyətlə, leksikologiyasında yoxdur, qayınata, qayınana otağa daxil olanda ayağa qalxmaq mədəniyyəti yoxdur, ailə birgə çay masasına əyləşəndə telefon əlində sosial şəbəkələrdə səyahətdədir, evə qonaq gələndə onun əvəzinə qayınana çay hazırlamaq barədə düşünür, qonağı yola salmaq kimi mədəni davranış ona yaddır, harasa qonaq gedəndə yenə də xoşagəlməyən hərəkətləri ilə böyüklərini utandırır, zaman keçir, ana olur, səsini başına ataraq ətrafdakılara sayqısızlıq əlaməti olaraq uşağını sevələyir, bəzən hirslənir, qayınatanın, yaxud qayınananın adını verdiyi nəvəsini gözünün qabağındaca təhqiramiz sözlərlə söyür, döyür.

Belə misalları tək qadın üçün yox, həmçinin kişi üçün də yetərincə çəkmək olar. Bəzən qızın ata-anası, bacı-qardaşı onlara qonaq gəlir, kürəkən sosial şəbəkələrdən ayrılıb başını yuxarı qaldırmır, qayınata-qayınanasının yanında uşağını göyə elə atıb-tutur ki, deyirsən uşaq indicə düşüb parçalanacaq. Az sonra cibindən siqaret çıxarıb, yoldaşına, ay qız, ordan külqabı gətir deyib, siqareti alışdırır. Çox keçmir, yaxşı, siz oturun, mən gedim, bir fırlanım, gəlim, deyir və evdə qonaq olduğu halda evi tərk edir. Qonaq gedir, o, gəlib çıxmır ki, çıxmır.

Bəzi yeni qurulan ailələr isə yuxarıda qeyd etdiyim kimi ayrı yaşamağı seçirlər. Yeni qurulan ailənin sərbəst yox, ən azından 1-2 il qayınata-qayınana yanında yaşaması onlara ailə qayda-qanunlarını xeyli öyrətmiş olur. Onlar bununla təcrübə qazanır, başqa evə çıxanda bir o qədər problemlə üzləşmirlər.

## "Kaş ki"lər...

Bütün bu söhbətlər düşüncəmdə o qədər "kaş ki"lər yaradır ki... Keşmişi yadıma salıb deyirəm ki, kaş ki, ailə çox böyük ola. Böyük bir masanın ətrafında ən azından 8-10 stul qoyula. Nənə-baba, ata-ana, bacı-qardaş burada bir araya yığıla. Hamı bir-birinə can deyə, can eşidə. Kaş ki, nənə-analarımızın dediklərinin ən yaxşıları ailələrdə ola. Kaş ki, ailədə hər kəs bir-birinin yerini bilə, ona hörmətlə yanaşa. Analar gəlinlərini doğma qızları, kürəkənlərini isə oğulları olaraq qəbul edələr, gəlinlər, kürəkənlər də qayınata, qayınanalarını doğma valideynləri biləler. Kaş ki, telefon əllərində sosial şəbəkələrə daxil olub orada başını qataraq evdəki uşaqlarına saatlarla vaxt ayırmayan valideynlər olmaya. Kaş ki, qayınata, qayıınana, bacı-qardaş "bu gün sizə qonaq gələcəyik" deyəndə üzlər turşumaya, "eyyy" sözü dilə gəlməyə.

Kaş ki bəzi ailələrdə qız övladı dünyaya gələndə atalar kədərdən dostlarını başlarına yığıb sərxoşluq etməyələr. Kaş ki, cəmiyyətimiz müasirləşdikcə, adət-ənənələrimiz itirilməyə, qorunub saxlana. Məhz bu zaman ideal ailədən danışmaq olar...

İdeal ailə-bunu kim istəməz ki? Kim "kaş ki mənim də belə ailəm olsun",- deməz. Belə isə ideal ailə formulunu qoruyaq, ailələrimizə tətbiq edək ki, ailə dəyərlərimizi də yaşada bilək. İnanın, nə qədər müasirləşsək də, keçmişə müraciət etmək, o əmnənələri yaşatmaq bizi hər zaman hörmətli, sayğılı edər.

***Mətanət Məmmədova***

# Gürcüstan hazır deyil

## Tbilisi Abxaziya və Cənubi Osetiya ilə bağlı Moskvaya tələblərindən əl çəkmir

***Gürcüstan rəhbərliyi Moskvanın diplomatik münasibətləri bərpa etməyə hazır olması ilə bağlı bəyanatlara açıq şəkildə "yox" cavabı verib. Hakim "Gürcü Arzusu" (GA) partiyası əmin edib ki, birincisi, Rusiya Federasiyasının 2008-ci ildə beş günlük müharibədən sonra müstəqilliyini tanıdığı Abxaziya və Cənubi Osetiya məsələsi şəklində "sənədləri aradan qaldırmaq" lazımdır. Bu mövqe nadir hallarda rast gəlinən haldır ki, Gürcüstan hakimiyyəti və onların barışmaz ölkə daxilində barışmaz rəqibi fikirləşir. Aprelin 14-də Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib: "Gürcüstanla münasibətlərin qurulması üçün dəqiq vaxtlar yoxdur, lakin Rusiyanın münasibətləri normallaşdırmaq üçün addımlar atmağa hazır olması faktı doğrudur".***

Daha əvvəl Rusiya Xarici İşlər Nazirliyinin rəhbərinin müavini Mixail Qaluzin "İzvestiya"ya müsahibəsində bu mövzuda danışıb. "Diplomatik münasibətlərə gəlincə, biz onları bərpa etməyə hazırıq", - deyə diplomat vurğulayıb və sonra Gürcüstan tərəfinin məsələni "Rusiyanın Abxaziya və Cənubi Osetiya ilə bağlı mövqeyi" ilə əlaqələndirməkdə davam etdiyinə görə təəssüfləndiyini bildirib. "2008-ci ilin avqustunda Abxaziya və Cənubi Osetiyanın suverenliyini və müstəqilliyini tanımaq qərarına yenidən baxılmayacaq", - Mixail Qaluzin yekunlaşdırıb.




O, həmçinin diplomatik münasibətləri kəsilən Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvilinin 2008-ci ildə beşgünlük müharibəni başlatdığına görə bu gün vətənində "sərt tənqidə" məruz qaldığını xatırladıb və "Gürcü Arzusu"nun fəxri sədri Bidzina İvanişvili həmin hadisələrə görə absetslərdən üzr istəməyə hazır olduğunu bildirib. Nazir müavini bu yanaşmanı "sağlam" adlandırıb.











Gürcüstanda buna ilk reaksiya verən parlamentin sədri Şalva Papuaşvili olub: "Rusiya-Gürcüstan münasibətlərinin bərpası qarşısında yalnız bir maneə var - Gürcüstan ərazisinin Rusiya tərəfindən işğalı". Onun sözlərinə görə, Rusiya "bu maneəni çox asanlıqla aradan qaldıra bilər" və "Tbilisi Moskvanın bu istiqamətdə ilk addımlarını görən kimi" diplomatik münasibətlərin bərpası mümkün olacaq. "Hər şey Rusiyadan asılıdır", - deyə cənab Papuaşvili yekunlaşdırıb.

Ötən həftənin sonunda Türkiyənin Antalya şəhərində keçirilən beynəlxalq forum zamanı konstitusiyaya görə ölkədə tam səlahiyyətlərə malik olan Gürcüstanın baş naziri İrakli Kobaxidze də eyni mövzuda çıxış edib. "Bizim ərazimizin 20%-ni işğal edən Rusiya ilə münasibətlərə sülhsevər baxışımız var", - deyə baş nazir qeyd edib. Və o xatırladıb ki, ölkəsi "Rusiya ilə diplomatik əlaqələri yoxdur", lakin ticarət əlaqələri var. Cənab Kobaxidze qeyd edib ki, Gürcüstanın kənd təsərrüfatı məhsulları, şərabları və mineral suları Rusiyaya verilir, respublikaya rusiyalı turist axını gəlir.

Gürcüstan müxalifəti "Gürcü arzusu" partiyası ilə həmrəydir ki, Moskva Abxaziya və Cənubi Osetiyanın müstəqilliyinin tanınmasını geri götürənə qədər Rusiya ilə diplomatik münasibətləri bərpa etmək yolverilməzdir. Eyni zamanda, müxalifət liderləri GA-dan Moskva ilə münasibətləri bərpa etmək üçün gizli və gizli istəkdən şübhələnirlər. Rusiyalı oliqarx Bidzina İvanişvilinin "Gürcü arzusu" partiyası həm ölkə daxilində, həm də Qərblə münasibətlərdə tamamilə "Kreml siyasəti" aparır. Bircə iş Moskva ilə diplomatik münasibətləri bərpa etməkdir, lakin onlar Gürcüstan xalqının Birləşmiş Millətlər Partiyasının, Xatirə Xalq Partiyasının qəzəbindən qorxaraq cəsarət etmirlər.

Oxşar ittihamlar 2024-cü il parlament seçkilərindən sonra beş faizlik baryeri aşan bütün digər müxalifət qüvvələrinin liderləri tərəfindən də səsləndirilib. Lakin bu gün Gürcüstanda parlamentdən kənarda belə, Rusiya Federasiyası Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanımasından geri çəkilməzdən əvvəl onunla diplomatik münasibətlərin bərpasını müdafiə edən heç bir siyasi qüvvə yoxdur. Və belə bir ssenari, Moskvada dəfələrlə açıqlandığı kimi, tamamilə mümkün deyil.

***V.VƏLİYEV***

# Hemofiliya: dünyada 500 min, Azərbaycanda 1744 nəfər

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “uşaq və gənclərin fiziki və mənəvi inkişafı.” istiqaməti çərçivəsində hazırlanıb



Hemofiliya, qanın normal şəkildə laxtalana bilmədiyi nadir, irsi qan xəstəliyidir. Laxtalanmamaya səbəb isə qanın lazımı qədər laxtalanma zülalına malik olmamasıdır. Hemofiliyalı insanlarda qan laxtalana bilmədiyi üçün hər hansı zədə və ya cərrahi əməliyyatdan sonra uzun müddətli daxili və ya xarici qanaxma baş verir. Ağır hallarda oynaqlarda və əzələlərdə də qanaxma baş verir. Kiçik kəsiklər hemofiliyalı insanlar üçün böyük problem deyil, ancaq xəstəliyin ağır formaları bədən daxilində qanaxma riskini artırır. Bu da orqan və toxumalara zərər verə bilər. Hemofiliya üçün əsas risk faktoru qohumların da xəstə olmasıdır. Çünki xəstəliyin ən əsas xüsusiyyəti irsi olmasıdır.



Hemofiliya dünyada təxminən hər 10.000 doğuşdan birində qeydə alınır. 2024-cü ilin statistikasına görə dünyada 500 min hemofiliyalı xəstə var. Amma xəstəliyinin fərqində olmayan, etinasız yanaşan insanları da nəzərə alanda ümumilikdə dünyada 1 milyona yaxın hemofiliyalı xəstənin olduğu təxmin edilir. 2024-cü il ərzində Azərbaycanda hemofiliyalı xəstələrin vahid elektron registrində 1744 xəstə qeydiyyatda olub. Onlardan 1177-i Hemofiliya A, 168-i Hemofiliya B, 242-i von Willebrand, 157-i isə digər laxtalanma pozuntusu olan xəstələrdir. Hemofiliyalı xəstələr qanaxmaların profilaktikası məqsədilə plazma və gen mühəndisliyi yolu ilə alınan qan faktor preparatları ilə təmin olunur.

Normal insan bədənində hər hansı bir səbəbdən qanaxma baş verdikdə, damar divarındakı hüceyrələr, trombositlər və laxtalanma faktorları həmin nahiyəyə hücum edərək laxtanın əmələ gəlməsinə səbəb olur və qanaxmanı dayandırır. Qanın tərkibində qanaxmanı dayandırmağa kömək edən ”laxtalanma faktorları” adlandırılan bir çox zülal var. Hemofiliyalı adamlarda anadangəlmə bu zülallar yoxdur.



Bir insanın hemofiliya xəstəliyinin şiddəti qanda olan laxtalanma faktorunun miqdarı ilə müəyyən edilir. Faktorun miqdarı nə qədər az olarsa, ciddi sağlamlıq problemlərinə səbəb ola biləcək qanaxma ehtimalı bir o qədər yüksəkdir. Nadir hallarda hemofiliya doğuşdan sonra inkişaf edə bilər. Hemofiliya adətən irsi xarakter daşıyır. 8-ci faktor çatışmazlığı hemofiliya A, 9-cu faktor çatışmazlığı isə hemofiliya B adlanır. Hemofiliya A təxminən 5000 kişi doğuşdan 1-də müşahidə edilir və onun tezliyi hemofiliya B-dən 5-6 dəfə yüksəkdir. Hemofiliya A bütün hemofiliya hallarının 85%-ni, hemofiliya B isə %5-ni təşkil edir. Xəstəlik ən çox daşıyıcı analardan oğullarına keçir. Xəstəlik çox nadir olsa da, qızlarda da müşahidə oluna bilər. Bunun baş verməsi üçün həm ana, həm də ata daşıyıcı olmalıdır.

Hemofiliyanın bir neçə fərqli növü var. Bununla belə, irsi hemofiliyanın ən çox yayılmış əsas növləri A və B tiplərinə bölünür. Hemofiliya A-da laxtalanma faktoru VII çatışmazlığı var. Bu, hemofiliya hallarının təxminən 80%-ni təşkil edir. Hemofiliya A tipli xəstələrin 70%-i ağır hemofiliyalı xəstələrdir və bu tip hemofiliya həm də ”Klassik Hemofiliya” adlanır. Hemofiliyanın digər növü hemofiliya B-dir. Hemofiliya B olan xəstələrdə IX laxtalanma faktorunun çatışmazlığı var. Həm A tipli hemofiliyada, həm də B tipli hemofiliyada laxtalanma faktorunun miqdarından asılı olaraq xəstəlik yüngül, orta və ya ağır formada müəyyən edilə bilər. Qan laxtalanma faktorunun səviyyəsi 5-40% arasında olduqda yüngül anemiya, 1-5% arasında olduqda orta dərəcəli anemiya, 1%-dən aşağı olduqda isə ağır anemiya baş verir. Simptomlar hemofiliyanın hər iki növünə paralel ola bilər. Ancaq xəstəliyin şiddətindən asılı olaraq, simptomlar daha çox və ya daha az şiddətli ola bilər.

Hemofiliyanın əsas simptomu zədələrdən sonra uzun müddət davam edən qanaxmadır. Bu qanaxmalar əməliyyatdan sonra və ya hətta kiçik bir kəsikdən sonra ciddi şəkildə özünü göstərə bilər. Qanaxma ilə yanaşı, asan zədələnmə, tez-tez və çətin dayandırılan burun qanaxmaları, sidikdə və ya nəcisdə qan olması da hemofiliyanın əlamətləridir. Əməliyyatdan sonra və ya hətta kiçik bir kəsikdən sonra ağır qanaxma olursa, qanaxma dayandıqdan bir müddət sonra yenidən başlayırsa, ağızda və diş ətində qanaxma və ya diş çəkmə zamanı qanaxmanın dayandırılmasında çətinlik varsa, tez-tez və çətin dayandırılan burun qanaxmaları olursa, sadə yaralanmalarda belə, dəri altında qanaxma əlaməti olaraq göyərmə meydana gəlirsə, bədən də səbəbsiz qanaxma baş verirsə, qanın yığılmasına səbəb ola bilən əzələ və yumşaq toxumalarda qanaxma - hematoma olursa, şişkinlik və ağrıya səbəb olan oynaqlarda qanaxma varsa bunlar hemofiliyanın əlamətləridir.

Qanamanın miqdarı hemofiliyanın növündən və şiddətindən asılıdır. Qanama bədənin səthində (xarici qanaxma) və ya daxilində (daxili qanaxma) baş verə bilər. Hemofiliyada ən vacib problemlərdən biri oynaqdaxili qanaxmalardır. Ağır hemofiliyada qanaxma özbaşına baş verdiyi halda, orta və yüngül dərəcəli hemofiliyada travma nəticəsində baş verir. Qanaxma klinik olaraq ağrı, şişlik və hərəkətin məhdudlaşdırılması ilə xarakterizə olunur. Daxili qanaxma əlamətləri adətən sidikdə və nəcisdə qan kimi görünür.



Hemofiliya üçün risk yarada biləcək əlamətlərdən biri də səbəbi bilinməyən qanaxmadır. Səbəbsiz qanaxma adətən daha ağır hemofiliya hallarında baş verir. Belə hallarda müalicə tələb oluna bilər. Bundan əlavə, ağır hemofiliyalı bəzi insanlarda başdan sadə bir zərbə belə beyində qanaxmaya səbəb ola bilər, lakin bu, nadirdir. Nadir də olsa, bu vəziyyət ciddi fəsadlara səbəb ola bilər. Uzun müddət davam edən baş ağrısı, təkrarlanan qusma, yuxusuzluq və ya latergiya (uzun müddət yatmaq), cüt görmə, ani halsızlıq, qıcolmalar və ya tutmalar olursa beyində qanaxmadan şübhələnmək olar.

Hemofiliya irsiyyəti olan ailələrdə doğulan körpələr, ümumiyyətlə, doğuşdan dərhal sonra hemofiliyanın olub-olmaması üçün müayinə edilməlidir. Hemofiliya diaqnozu qoyulan körpələrin təxminən üçdə birinin ailəsində bu xəstəlikdən əziyyət çəkən başqa ailə üzvü yoxdur. Yenidoğulmuşda hemofiliyanın müəyyən əlamətləri varsa, həkim hemofiliya testi təyin edə bilər.

Hemofiliyanın qəti müalicəsini təmin etmək mümkün deyil. Ona görə də xəstələr hemofiliya ilə necə yaşamağı öyrənməlidirlər. Bu sayədə xəstələrin yaralanma və qanaxma zamanı düzgün müdaxilə qaydalarına riayət edərək həyatlarını təhlükəyə atmamaları təmin edilir. Hemofiliya və bütün digər qanaxma-laxtalanma problemləri olan insanlar bir hadisə zamanı qanaxmanı mümkün qədər tez dayandırmağı bacarmasa əlillik və deformasiya qazana bilərlər. Qanaxmanın ağır hallarında qana süni laxtalanma formulu yeridilə bilər. Bu dərmanlar inyeksiya şəklindədir. Yüngül hallarda, qanaxmanın başlanğıcında inyeksiya tövsiyə edilmir. Qanaxma uzandıqca inyeksiya tətbiq edilir. Ciddi qanaxma və travma zamanı qanaxmanın qarşısını almaq üçün müntəzəm inyeksiya müalicəsi tətbiq edilir.

Hemofiliya ilə yaşamalı olan xəstələr üçün ən təsirli müalicə üsulu müəyyən hərəkətlərdən, təhlükəli davranışlardan qaçmaqdır. Ağır və zədələrə səbəb olan idman növləri ilə məşğul olmamaq çox vacibdir. Çünki hər hansı bir zədə alsalar və qanaxma olarsa bu vəziyyət hemofiliyalı xəstələr üçün ciddi problemlər yarada, hətta həyatını itirə bilər. Tərkibində qan durulaşdırıcı olan preparatlardan, qidalanma növündən uzaq durmaq lazımdır. Çünki bu dərmanlar onsuz da laxtalanmaqda çətinlik çəkən qanın laxtalanmasını daha da çətinləşdirir. Ağız və diş sağlamlığına da diqqət yetirmək lazımdır. Ağızda meydana gələ biləcək iltihab və qanaxma ciddi problemlərə səbəb ola bilər.

Fiziki hərəkət əzələlərin elastik, oynaqların möhkəm olmasına və sağlam çəkidə qalmağa kömək edir. Hemofiliyalı uşaqlar və böyüklər həkimlərinin göstərişi ilə, sağlamlıqlarına zərər verməyəcək formada müntəzəm olaraq idmanla məşğul olmalıdırlar. Yüngül hemofiliyalı insanlar müxtəlif idman növləri ilə məşğul ola bilsələr də ağır hemofiliyası olan insanlar başqaları ilə təması olan idman növlərindən, qanaxmaya və xəsarətlərə səbəb ola biləcək hərəkətlərdən çəkinməlidirlər.

Hemofiliyalı anaların sağlam uşaq dünyaya gətirmə ehtimalı var. Daşıyıcı olduğu bilinən anaların körpələrində hamiləliyin 10-cu həftəsində dölün xəstəliyə tutulması müəyyən edilir. Hemofiliya daşıyıcısı olan qadınlar süni mayalanma yolu ilə hemofiliyası olmayan uşaq dünyaya gətirə bilərlər. Ananın həkim müalicəsi və nəzarəti altında yumurtaları toplanır, laboratoriya mühitində sperma ilə birləşdirilərək embrion yaradılır. Hemofiliya testindən sonra hemofiliyası olmayan embrionlar ananın uşaqlığına köçürülür. Beləcə sağlam uşağın doğulması təmin edilir.

**Lalə Mehralı**

SON SƏHİFƏ
SƏS
17 aprel
2025-ci il

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# “Çoxuşaqlı ailələr sanki cəmiyyətin bir mikro modeli kimi olur”





“Uşaqların sosiallaşması üçün ən münasib mühit ailə mühitidir”. Bu sözləri sosioloq Üzeyir Şəfiyev SİA-ya açıqlamasında deyib. ”Ailə mühitində də, şübhəsiz ki, sosial bağlar, sosial əlaqələr mühüm rol oynayır: ”Bu baxımdan psixoloqlar öz araşdırmalarında təsdiq edirlər ki, ailə mühitində uşağın normal sosiallaşması üçün ailədə üç uşağın olması daha adekvatdır. Çünki uşaq özünü başqa uşaqla müqayisə etmə fonunda formalaşır. Sanki bir-birinə güzgü tuturlar. Ona görə, uşaqların sosiallaşma mühitinin adekvat olması üçün Avropa, Qərb psixoloqları tərəfindən üç uşaq ailədə tövsiyə olunur.

Bizim də müşahidələrimiz onu deməyə əsas verir ki, çoxuşaqlı ailədə böyüyən uşaqlar bir-birinə dəstək, qayğı, empatiya baxımından daha həssas olur, deməli digər uşaqlara münasibətdə də oxşar xarakter formalaşır. Çoxuşaqlı ailələr sanki cəmiyyətin bir mikro modeli kimi olur. Orada münasibətlər başa düşülür.

Amma müşahidələr onu deməyə əsas verir ki, təkuşaqlı ailələrdə böyüyən uşaq ya hədsiz assosial olur, özünə qapanır, ya da ünsiyyət aclığı çəkdiyi üçün həddindən artıq ünsiyyətə meyilli olur. Ünsiyyət aclığını doldurmaq üçün daha çox səviyyədə ünsiyyətə meyilli olur. Bu baxımdan çox yaxşı olar ki, ailədə üç uşaq modeli olsun və belə mühitdə uşağın sosiallaşması daha münasib olur. Hesab edirəm ki, bizim cəmiyyətimizdə də zamanla çoxuşaqlı ailələr olduğuna görə cəmiyyətimiz çox pozitiv, ünsiyyətcil, paylaşma mədəniyyəti olan cəmiyyət idi. Əgər ailədə tək uşaq varsa, o, mütləq bağça mühitinə inteqrasiya olunmalıdır ki, digər sosiallaşma institutlarından cəlb olunmalıdır ki, normal sosial mühitdə tərbiyə ala bilsin. Çünki uşaq həm ailə mühitində, həm də digər sosiallaşma institutlarında formalaşır. Məqsədəuyğun olardı ki, ailədə üç uşaq modeli olsun, bu, tövsiyə olunandır. Çünki bu, uşaqların sosiallaşmasına müsbət təsir göstərir”.

***Söylü Ağazadə***

# 29 yaşlı hücumçu Çempionlar Liqasında rekordçu oldu

***Dortmund ”Borussiya”sının futbolçusu Seru Qirassi UEFA Çempionlar Liqasında (ÇL) rekorda imza atıb. 29 yaşlı hücumçu buna İspaniya təmsilçisi ”Barselona”ya qalib gəldikləri (3:1) 1/4 final mərhələsinin cavab matçında nail olub.***



Het-trik edən qvineyalı forvard cari mövsüm turnirdə 13 dəfə fərqlənib. O, afrikalı oyunçular arasında ÇL-də bir mövsümdə vurduğu qollara görə rekordçudur. S.Qirassi Dortmund klubunun sabiq futbolçusu Sebastyan Allenin (2021/2022 - 11 qol) nailiyyətini geridə qoyub.

# Bir gündə bank kartlarından daha 32 min 306 manat oğurlandı!

Aprelin 15-də vətəndaşların bank kartlarından 32 min 306 manat oğurlanıb. Bu barədə Daxili İşlər Nazirliyindən mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, vətəndaşların bank kartlarından oğurluqlar davam edir: ”Kartın üzərindəki CVV/CVC kodu, SMS vasitəsilə göndərilən OTP kodu, digər sizə məxsus sistemlərə giriş üçün lazım olan loqin və şifrələr, kartın PİN kodu məxfi məlumatlardır. Bu məlumatları naməlum şəxslərə verdiyiniz halda hesabınızda olan pullar, yaxud pul yoxdursa, kredit formasında sizə zərər vuracaqlar. Aprelin 15-də ayrı-ayrı vətəndaşların müxtəlif kiber üsulla 13700, 3450, 3017, 1827, 1600, 1396, 1288, 1140, 1121, 1010, 822, 493, 330, 303,



300, 221, 170, 118 manat pul vəsaitləri bank kartlarından oğurlanıb”.

DİN bir daha vətəndaşlara şübhəli zənglərdən gələn cəlbedici qazanc, sığorta, bank hesablarının möhkəmləndirilməsi, mədaxil üzrə ödənişlərlə əlaqəli təkliflərə diqqətlə yanaşmağı tövsiyə edir: ”Qəti formada şəxsi bank məlumatlarını naməlum şəxslərə verməyin, təhlükə var”.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700